

# QALİBLƏRİN QALİBİ

Qalib Hümbətov

**Rüfət Hüseynli**

Azf. 309379

# QALİBLƏRİN QALİBİ

## Qalib Hümbətov

Azərbaycan Milli Kitabxanası

Bakı - 2019

Redaktor: filologiya elmləri doktoru, professor,
Əməkdar jurnalist
**Nəsir ƏHMƏDLİ**

Rəyçilər: filologiya elmləri doktoru, professor,
Dövlət Mükafatı laureatı,
Azərbaycan Aşıqlar Birliyinin sədri
**Məhərrəm QASIMLI**

AMEA-nın Arxeologiya və Etnoqrafiya
İnstitutunun aparıcı elmi işçisi,
tarix üzrə fəlsəfə doktoru, dosent
**Ruslan RƏHİMLİ**

**Rüfət Hüseynli.**
**Qaliblərin Qalibi – Qalib Hümbətov.** Bakı: 2019,- 112 səh.

Əziz oxucular, haqqında danışacağımız qəhrəman Qalib Cavanşir oğlu Hümbətovdur. O, xidməti fəaliyyəti, göstərdiyi şücaətlərə görə Azərbaycan Silahlı Qüvvələrinin inkişafında onun möhkəmlənməsi yolunda şərəfli zabit adını doğrultmuş və 40 bahar yaşasa da polkovnik-leytenant rütbəsində briqada qərargah rəisi vəzifəsinədək yüksəlmişdir. Kitabda əsasən onun həyat və fəaliyyəti və onu tanıyanların söylədikləri xoş xatirələr oxucuların ixtiyarına verilir.

İnanıram ki, Qalib Hümbətov adlı vətənini sevən şəxsiyyətin keçdiyi ömür yolu gələcək gənc zabitlərin həyatına böyük təsir edəcək bir stolüstü kitab olacaq.

**Kitab Qalib Hümbətovun bibisi, Lider TV-də "Gecənin sehrində" telelayihəsinin rəhbəri, tanınmış aparıcı jurnalist Dilşad xanım ABBASƏLİQIZInın maddi və mənəvi dəstəyi ilə işıq üzü görmüşdür.**

ISBN 978-9952-473-89-6

© Rüfət Hüseynli, 2019

# Ön söz

Hörmətli oxucular! Hörmətli Qalibsevərlər!

Kitabın yazılma səbəbi müəllifi olduğum "Xınna dərəsində Keşişkənd-Qoşabulaq elləri" kitabının hazırlanması ərəfəsində tanınmış aparıcı-jurnalist Dilşad xanım ABBASƏLİQIZInın qardaşı Cavanşirin oğlu Qalib Hümbətovun keçdiyi xidməti yol ayrıca bir kitabdır deməsi, -məni düşündürdü. Və beləcə, dahi rus yazıçısı Fyodor Mixayloviç Dostoyevskinin -"İnsan varlığının sirri yalnız yaşamaqda deyil, nəyin naminə yaşamaqdadır" kəlamını tədqiq etsək görəcəyik ki, Qalib Hümbətov vətən, xalq naminə yaşamış və xidmət göstərmişdir.

Təmsil olunduğu "Morullular" nəslindən pöhrələnib böyüyən Qalib Hümbətov göstərdiyi qəhrəmanlığı ilə adını hərb tariximizə qızıl hərflərlə həkk etdirdi. Tariximizə "İldırım sürətli hücum" kimi düşmüş "Aprel döyüşləri"ndə göstərdiyi şücaətə görə fərqlənmiş, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənabları onu qələbə əzmi ilə təbrik etmişdir. Bu yerdə Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün dediyi müdrik kəlam yerinə düşür "Ordunun vəzifəsi vətəni işğal etmək istəyən düşmənə qarşı ayağa qalxmaqdır. Belə ayağa qalxmaq yerində saymaq üçün deyil, düşmənin üstünə atılmaq məqsədilə edilərsə, ayağa qalxmağa dəyər". Bəli, şanlı ordumuz ayağa qalxdı, hərbi gücünü ortaya qoydu, düşmən böyük itkilər verərək

geri oturduldu və strateji əhəmiyyətli Lələtəpə yüksəkliyini ələ keçirdik.

Azərbaycan ordusunun şəxsi heyətində öz sözü, əməli və qəhrəmanlığı ilə tanınmışlardan biri olan Qalib Hümbətov sanki əsgər zabit münasibətində tələbkarlıq və mərhəmət körpüsü rolunu oynamışdır. O, hərb qanunları ilə həyat fəlsəfəsinin sintezindən doğan bir ömür yolu keçmişdir. Bu yolu zabit qüruru, dəyanəti və alicənablığı ilə elə keçdi ki, həmişə başı uca oldu. Hərbi xidmət borcunu yerinə yetirmək hər birimzin həyatında baş verir. Amma o dövrü elə keçmək lazımdır ki, sabahın qəhrəmanı olasan. Çünki, vətən sənə arxalanır. Bütün bunları şəxsi heyətə Qalib Hümbətov elə aşılayırmış ki, əsgər deyərmiş,-bizlər vətənimizin və komandirimizin uğrunda ölməyə hazırıq.

Bax budur, Qalib Hümbətovun keçdiyi şərəfli, alicənab zabit ömrü.

*Rüfət HÜSEYNLİ (XINNALI)*





## Qalibin

*Məzahir Alıyev,*
*şair, şərqşünas,*
*AYB-nin üzvü*



Qələm alıb başlayıram,
Adına dastan Qalibin.
Düşmənlərə qan udduran,
İgid, qəhrəman Qalibin.
Eşitsin şan-şöhrətini,
İranla Turan Qalibin.
Əhsən!-desin hünərinə,
Dinləyən insan Qalibin.
Sumqayıtdır bu dünyaya,
Gəldiyi məkan Qalibin.

Baba yurdu Qoşabulaq,
Gədəbəyin mərd elindən.
Nəsli Morullu nəslidir,
Düşmən dad çəkir əlindən.
Albay Cahangir sayağı,
Güc almışdı dağ selindən.
Gecə-gündüz nəğmə kimi,
Yerə düşməzdi dilindən.
Türk İskəndər, Topçu Sahib,
Məzahir, Pünhan Qalibin.

Yaqublu Məcid ağa tək,
El yolunda qoymuşdu can.
Dayanmazdı qabağında,
Nə fırtına, nə də tufan.
Şanlı Aprel savaşında,
Düşmənlərə uddurdu qan.
Aylar, illər ötüşsə də,
Unudulmaz heç bir zaman.
Qarabağda yağılara,
Tutduğu divan Qalibin.

Andırırdı Səttarxanı,
Qoç Babəki, Cavanşiri.
Girdiyi tər savaşlardan,
Qələbəylə döndü geri.
Qabağında yağı düşmən,
Qucaqlayıb öpdü yeri.
Yetirmişdi Azərbaycan,
Belə bir ər oğlu əri.
Sıxmışdı mərd əllərini,
Ali komandan Qalibin.

Məzahir rəhmət söyləyir,
Sənə, igid yurddaşımız.
Müqəddəs qəbrin önündə,
Yerə əyilir başımız.
Hünərindən dastan yazıb,
Əziz Rüfət qardaşımız.
Bu vətənin çöllərində,
Gül bitirər göz yaşımız.
Qürurla anar adını,
Gələcək zaman Qalibin.



# I FƏSİL

## Dünyaya bir oğul gəldi...

## Qələbələr onu səsləyərdi

*Qardaşı: Xaliq HÜMBƏTOV*



Qardaş üçün qardaşın söz deməyi nə qədər asan olsa da dünyasını cismən dəyişmiş qardaş haqda söz demək isə daha çətindir. Amma Xaliq dünyanı dərk edən, səbrli, din-iman, Allah adamı olduğuna görə müsahibə üçün belə başladı: - Əvvəla, bütün cəmi Peyğəmbərlərimizə, davamçıları olan müqəddəs övliyyalarımıza, alimlərimizə və şəhidlərimizə Allahdan rəhmət diləyirəm, uyuduqları torpaq cənnət-behişt olsun! Amin!

Dünyanın gəlişini-gedişini anlamaq, onu sevmək və şükür etmək biz bəndələrin ən vacib əməllərindəndir. Bizlər bu dünyaya nə üçün gəlmişik sualına cavab axtara-axtara ömür yaşayıb iz qoyuruq, ad qazanırıq. Bəli, Qalib Hümbətov da 40 bahar yaşayıb bacardığı qədər ad-san qazanıb, vətən üçün, onun vətəndaşları üçün nələri isə etdi, iz qoydu. Səmimi deyirəm mən onun daxilindən gələnləri olduğu kimi danışacam. Xəyallar burulğanında var-gəl edən Xaliq Qalibin təsvirini vermək üçün baxça həyatındakı illərinə döndü. Hələ ilk əvvəllər baxçaya gedəndə tay-tuşları arasında cəld hərəkətləri, çevikliyi ilə bərabər yaxşı şeir deməsi və rəsm çəkməyi ilə fərqlənməsini qeyd etdi. Və beləcə, məktəb illərinə qədəm qoyduğu gündən sinif





yoldaşları arasında yaxşı oxuması, rəsm çəkməyi və xüsusilə idmana olan böyük həvəsi ilə müəllimlərinin diqqətini özünə cəlb etmişdir.

Hər yay buraxılışında ata-baba yurdumuz Gədəbəy rayonunun Qoşabulaq-Keşişkənd obasına gedərdik. Kənd çox füsunkar yerdə qərar tutub və hər tərəfdən dağlarla əhatələnib. Xəstəyə dərman olan təmiz havası, saf bulaqları ilə xüsusilə fərqlənir. Ata baba-nənəm Qoşabulaqda, ana baba-nənəm isə Keşişkənd obasında yaşayardılar. Qalib kəndə ilk getdiyi gündən kənd uşaqları arasında da fərqlənərdi. Demək olar ki, bir yerdə sakit durmaq, oturmaq təbiətinə yad idi. Daim gəzmək-dolanmaq, yeni yerlərə getmək, hər şeylə maraqlanmaq xüsusiyyəti idi. Kəndin üst tərəfində Öküz dağı yerləşirdi, yamacları sıx meşələrlə örtülü idi. Bir neçə uşaq çoxlu gəzib, oynayıb yorulduq. Bir tərəfdən də bərk susuzlamışdıq. Nə qədər ətrafı gəzişib-dolaşdıq bulaq tapa bilmədik. Bu vaxt Qalib böyük bir vələs ağacının dibini qazıdı. Xeyli qazıyıb ağacın gövdəsinə bitişik daşın arasından axan lilli su aşkarladı. Həmin yeri daha da qazıyıb genişləndirdi və lilli su axıb-axıb duruldu. Tam durulduqdan sonra uşaqlar doyunca bulaq suyu içdi. Və bu tapıntıdan, necə deyərlər bulaq kəşfindən hamımız çox sevindik. Amma Qalibin sevincinin həddi-hüdudu yox idi.

Qaynar, zəhmətkeş kənd həyatı çox maraqlıdır. Qolunu çirmələyib iş-gücə kömək etməkdən yorulmazdı. Bir dəfə kənddə taxıl zəmisi od alıb yanırdı. Bu hadisəni Qalib bilən kimi cəld zəmiyə tərəf cumub odun söndürülməsində yaxından köməkdarlıq etdi.

Od-alovla çarpışırdı, qorxu bilmirdi. Ocaq söndürüldü, baxıb gördük ki, Qalibin paltarının ətəyi yanmışdı. O, uşaq hafizəsi ilə yanmış paltarına görə zərrə qədər heyifsilənmədi, əksinə özündə rahatlıq tapmışdır ki, yanan odu söndürmüşdür. Bəli, elə kiçik yaşlarından özünü oda-alova vurmaq, əlindən glən köməkdarlığı etmək alın yazısı, ilahi hökmü imiş.

Bir yerdə oturmaq, rahat-rahat gəzmək, əylənmək onun üçün darıxdırıcı olardı. Canında-qanında daim bir şıltaqlıq onu gəzib-dolanmağa vadar edərdi. Məhz bu səbəbdən də hər bir şeyə diqqət yetirərdi. Kənd camaatının ruzi bərəkət dirənc, güvənc yeri taxıl zəmisi idi. Yenə söhbətimiz zəmidən düşdü. Qalib də tam dərk edirdi ki, taxıl zəmisi kənd camaatının gözünü dikəcəyi yaşam və dolanışıq yeridir. Ona görə də onu göz bəbəyi kimi qorumağın nə qədər vacibliyini dərindən dərk etmişdi. Çöldə otlayan mal-qaranı, qoyun-quzunu qoruq yerlərindən qorumaq çox vaxt yorucu bir məqama yetişəndə bilirsiniz, məhsula ziyan dəyir və səs-küy qopar, dava-dalaş olardı. Bu kimi halın baş verməməsi üçün hər bir zəhmətkeş insan öz işində məsuliyyətli olardı ki, onu kolxoz, sovxoz rəhbərliyi danlamasın.

Bir gün uşaqlarla yaxşıca oynayıb əylənirdik. Bu məqamda Qalib cəld uşaqlardan ayrılıb taxıl zəmisinə tərəf irəlilədi. Zəmiyə bir neçə dana və bir öküz girmişdi. Qalib heyvanları zəmidən çıxartmağa başladı. Birdən öküz Qalibi vurub ona xəsarət yetirdi. Bərk qorxduq. Kənd camaatı haraya gəldi və Qalibi Qoşabulaq kənd xəstəxanasına apardılar. Qabırğaları əzilmişdi. Xəstəxanada ilkin yardım gösərilmişdir.





Orada bir tibb bacısı demişdir ki, -A, bala qorxmursan, öküzə nə edəsisən.

Qalib: -Bəs taxıla ziyan vururdu. Onu qorumaq lazımdır.

Bəli, Qalib uşaq, gənclik dünyası ilə el-oba sevgisini qazanmışdı.

O, sevgini, hörməti-izzəti duyğusu, münasibəti və dünyagörüşü ilə qazanmışdı. Hər kəsə qarşı elə həssaslıqla yanaşardı ki, qarşı tərəfin ürəyincə olsun. İki qardaş çiling-ağac oynayırdıq, birdən Qalib çilingə elə vurdu ki, burnuma dəydi. Bərk ağrı baş qaldırdı. Elə sızıldayırdı ki, elə bil burnum yerindən qopmuşdu. Bundan Qalib çox mütəəssir oldu, sanki, kefi pozulmuşdu. Bir ay bu fikir-qəm onu lap dilxor etmişdi. Hətta çörək də yemirdi. Özünə bağışlamırdı ki, nə üçün qardaşımın burnuna çiling vurmuşam.

Deməklə qurtarası deyil. Eşitdik ki, məhlə uşaqlardan biri uçmuş köhnə tikili binadakı beton panellə daş arasında qılçı qalıb. Qalib bunu bilən kimi özünü ora yetirmiş, divardakı istilik radiatoruna kürəyini söykəyərək panel ilə daşı aralamışdır. Qalib sağ ayağını irəli atıb, sol ayağını çəkib aralaşmaq istəmişdir ki, istilik radiatoru aşağı düşərək baldırını kəsmişdir. Bu mənzərəni seyr edən ətradakı uşaqlar sanki donub qalmışdılar. Amma hamıdan uca boylu, qonşu oğlan cəld Qalibə köməkdarlıq edərək radiatoru kənara qoyaraq onu evimizə gətirdi.

Novxanıda bağ evimiz var. Uşaqlıq günlərimizi çox vaxt orada keçirərdik. Qalib hündürlükdən tullanmağı, qaçmağı, üzgüçülüyü bacarırdı. Ən qorxulu bir işi, ilantutmağı da bacarırdı. Qorxubilməzliyi onu

vəhşi, yırtıcı heyvanların üzərinə yeriməyə stimul yaratmışdır. Bağ arasında gəzişməkdən qorxmazdı. Birdən eşitdik ki, bir neçə köpək itləri qonşu oğlana soxulub. Qalib özünü ora yetirərək qonşu oğlanı itlərdən xilas etdi.

Həm fiziki, həm də mənəviyyatca güclü iradəyə malik olan Qalib üstəgəl idmana böyük maraq göstərərdi. Həmçinin mən də böyük maraq göstərmişəm. Hər iki qardaş Mehdi Hüseynzadə adına idman klubunda cüdo-sambo üzrə məşğul olmuşuq. Və hər iki qardaş daim yarışlarda iştirak edərək yüksək nəticələr əldə etmişik. Bütün bu nailiyyətlərin əldə olunmasında cüdo-sambo üzrə müəllimimiz Yengivar müəllimin böyük zəhməti olmuşdur.

Orta məktəb illəri də parlaq yaddaqalan olmuşdur. Onun orta təhsil almasında, -sinif rəhbəri, fizika müəllimi Minayə Mahmudovanın, biologiya müəllimi Gülbahar Muradovanın, tarix müəllimi Həmid Mirzəyevin, kimya müəllimi Eldar müəllimin və məktəb direktoru, coğrafiya müəllimi Sərraf müəllimin və digər müəllimlərin böyük pedaqoji zəhməti olmuşdur. Eldar müəllim atam Cavanşir müəllimə deyərdi: -Oğlunuz Qalibin çox böyük gələcəyi var. Onun gələcəkdə tarixə düşəcək əməlləri olacaq. O, adi insan olmayacaq. Gülbahar müəllim isə deyərdi: -Xaliq, sən səbirlisən. Qalib isə hansı bir tapşırıq olurdu dərhal özünü irəli atardı. Bu onun canında, qanında idi.

Atam deyərdi: - Ay oğul, ehtiyatlı ol.

Qalib: - Ata, bir candı, gəlib, keçəcək. Kimi də, ali olacaq, kimi də adi olacaq.

Hərbi xidmət dövrü isə ömrünün ən şərəfli illəri





olmuşdur. Hərb aləmində dostları ona "Kobra" deyərmişlər. Zabit dostlarından bir neçəsi belə deyirdi,- Mina basdırılmış əraziyə girmək həmişə təhlükəli olduğuna görə hamımız minaaxtaranları gözləyərdik ki, gəlib minaları çıxartsınlar və sonra biz həmin əraziyə daxil olaq. Belə hallarda Qalib heç vaxt minaaxtaranları gözləməzdi, xüsusi bilgisi və intusiyasına əsasən minalanmış ərazidən elə keçib gedərdi ki, minaya düşməzdi. Biz zabitlər isə ürək edib həmin əraziyə ayaq basmazdıq. Qalib möcüzəlimi, sehirlimi deyim bir qəhrəman idi. Onun möcüzəli və sehirli olmasının kökündə Allaha çox bağlı, inamlı və inamlı olması idi. Məhz bu səbəbdən də o, həmişə ön cəbhədə, döyüşlərdə təhlükələrdən qorunmuş və hifz olunmuşdur. Hətta onu mələklər də qorumuşdur. Allah adamı, savadlı, ürəkli və cəsarətli olması ilə həmişə o, digərlərindən seçilmişdir.

Hələ Bakı Ali Birləşmiş Komandirlər Məktəbində oxuduğu illərdə xəritə çəkmək bacarığı ilə fərlənərdi. Məhz bu kimi bacarığı onun xidmət etdiyi dövrdə özünü göstərdi və ona baş ucalığı gətirirdi. Xidmət etdiyi korpusun plan-konspekt və döyüş mövqelərinin xəritələrini yüksək dəqiqliklə çəkməsinə görə komandanlıq tərəfindən daim qiymətləndirilərdi. Bu səbəbdən də Qalibin məsuliyyəti daha da artardı. Hətta korpus komandanlığı məsləhət görərmiş ki, Qalib Hümbətov Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin və Azərbaycan Respublikasının Müdafiə Naziri general-polkovnik Zakir Həsənovun qarşısında məruzə etsin.

Qalibə görə həyatının mənası vətən, valideyn sev-

gisi, vətənə layiqli övlad olmaq və xeyirxah əməllər sahibi olmaq idi. Dostluğa sədaqəti, səxavəti ilə dostlarının istəklisi idi. Həyatdakı ən yaxın dostları –Elxan Hüseynov, Zaur İsmiyev, Vasif Rzayev, Pərviz və digərləri ilə öyünərdi.

Qalib Allah-Təalaya çox sığınan insan idi. O, Allaha, Vətənə xatir cihad edirəm deyərdi. Həm də deyərdi ki, -Bacardığınız qədər yaxşılıq edin, əzizlərim belə bir söz var, "Dəryada balıq bilməsə, xalıq biləcək". Onun çox qəribə bir düşüncə tərzi var idi. O, dünyanın Tanrının hökmü ilə yarandığına görə - "Hər nə istəsəniz, Yaradandan istəyin və Ona şükür edin" –deyərdi. Daha bir müqayisəli və maraqlı açıqlama deyərdi: - Dünya bir kinodu və hər şey Allahın yazdığı ssenari üzrə baş verir. Görürsən aktyor rol oynayır, "Oskar" alır. Gərək elə rol oynayasan ki, Hollivudun yox, Allahın "Oskar"ını alasan.

Gərək özün üçün yox, vətən üçün, dövlət üçün, dostlar, yaxınlar və qohum-əqraba üçün oğul olasan. Və sənə əhsən desinlər. Uşaq vaxtlarından dostları, qohumları bir yerdə görmək ən böyük arzusu idi. Nə vaxt ki, hərbidə işlədiyi dövrdə, məzuniyyətə gələrdi, tez evdəkilərlə görüşüb hal-əhval olduqdan sonra bütün qohum-əqrabaya, yaxın dostlara, qonşulara baş çəkərdi. Həyatda daha çox küsülü olanları sevməzdi və ərkyana deyərdi, -"Ə, niyə arvad kimi mısmırığını sallamısan, kişi sıxılar, daralar, amma incik olmaz". Belə etməsən, belə olmasan, -"Sabahkı günü Vətən sənə necə kişi deyib, güvənəcək". Və beləcə küsülüləri barışdırar, onları sevincək görəndə özü daha da sevinər, rahatlıq tapardı.





Novxanıdakı bağ evimizdə istirahət çardağı (el arasında "besedka" deyirlər) tikib başa çatdırdıqdan sonra ailəmiz və yaxın qohum-əqrabanı ora dəvət edib açılış etmək istəyirdik. Bu vaxt Qalib dedi: -Gəl hamını çağırıb İmam ehsanı verək. Mən isə dedim ki,- Qardaş, Ramazan bayramıdı, iftar süfrəsi açaq. O, mənimlə razılaşdı və hamını iftar süfrəsinə dəvət edərək açılış etdik.

Həmişə gözü axtarar, qulağı səsdə olarmış ki, xidmətdəyik, burada hamımız bir ailəyik. Məhz bu səbəbdən də onun ünvanına hər kim üz tutmuşdursa daim sevincək geri dönmüşdür, yəni o, bacardığı qədər əlindən gələn köməkdarlığı əsirgəməmişdir. Qalib eşidir ki, əsgərlikdə onun yanında xidmət etmiş Sumqayıtdan olan bir əsgər cərrahiyyə əməliyyatı olub. O, həmin əsgərə pul köçürmüşdür. Hətta toy şənliklərinə də maddi dəstək olmuşdu.

Qalib: -Bir kimsəni sevindirsən, Allahın da xoşuna gedər və Allah da səni həmişə sevindirər, -deyərdi.

Hətta bir dəfə qonşumuz ürəkdən cərrahiyyə əməliyyatı olunmuşdur. Qalib bunu eşidib, bilmişdir ki, həmin adamın maddi çətinliyi var. O, öz halal maaşından həmin xəstəyə kömək əlini uzatmış, maddi yardım göstərmişdir. Nə bilim, necə deyim, həmişə tanıdığı, bildiyi insanları soruşar, maralanardı.

Qalib: - Tanrı hamımızı eyni hüquqlu yaradıb. Bizim isə vəzifə borcumuz üzərimizə düşən işlərin öhdəsindən gəlmək və bir-birimizə yardımçı olmaqdır, -deyərdi. Vətəninə, millətinə sonsuz sevgi ilə bağlı olan Qalib adlı şəxsiyyətin həyat fəlsəfəsinin əsas qayəsi "Öncə vətən" şüarı olmuşdur.

Yaşamaq, yaratmaq həvəsi ilə çoşub-çağlayardı. Məhz bu istək, arzusuna çatmaq üçün hələ orta məktəbdə oxuduğu illərdə həkim olmaq arzusunu qarşısına məqsəd qoymuşdur. Və elə də oldu, orta məktəbi bitirib Azərbaycan Tibb Universitetinə qəbul olundu. Lakin ödənişli olduğuna görə razı olmamış və qəflətən hərbçi olmaq qərarını vermişdir. Və beləcə ali hərbi məktəbə daxil oldu, oranı müvəffəqiyyətlə bitirib zabit şərəfinə yüksəldi. Amma həkimlik arzusunu ürəyində dəfn etməmişdir. Söz arası deyərdi: -Həkim olacam, özü də ürək üzrə həkim-cərrah. Ən çox qocaları pulsuz müalicə edəcəm.

Bəli, Qalib adlı şəxsiyyətin keçdiyi ömür yoluna diqqət etdikcə, ilahi, onun ürəyi nə qədər böyük, hüdudsuz, sərhədsiz olmuşdur. Düşünürsən, insan bu qədər taleyüklü məsələləri ürəyinin hansı guşələrinə yerləşdirirmiş. Axı, bunları dərk edib, düşünmək çox çətindir.

Bir amalı varıydı, halal, kişi kimi yaşamaq ideyası. Mən bir qardaş kimi onunla həmişə dost, sirdaş olmuşam. Mən deyəndə ki,-"Kişilər ölər, kişilik ölməz". O, bu sözdən həmişə qürrələnərdi. Və özüdə bu sözə cavab olaraq, -"Ölümdən qorxan kafirdir" - deyərdi.

Ölüm onun üçün adiləşmişdir. O, adi ölümlə barışmırdı. Vətən üçün şəhidlik şərbətini dadıb o zirvəyə yüksəlməyi alqışlayırdı. Amma "İldırım sürətli, Aprel döyüşləri"ndən sağ-salamat çıxmışdır. Lakin amansız xəstəlik onun "Şahi-Mərdan" canını didib parçaladı və ürəyində gəzdirdiyi saysız arzularını yarımçıq qoydu. Onu tanıyanların hamısı fəryad çəkdi. Lakin qızı Aytac





xanımın, -Ay ata bizi qoyub hara gedirsən deməsi, yeri-göyü lərzəyə salırdı. Bir deyim var: "Ata öləndə oğul gültək solarmış, Qız ağlayıb saçlarını yolarmış". Nə qədər çətin olsa da, Qalibli günləri xatırlayanlar daim qürur duyurlar ki, - O, sönməz bir məşəldir. Bu kitabı oxuyan hər bir gənc onun keçdiyi ömür yollarına baxıb düşmən üzərinə yeriyəcək və Qalibə oxşayacaq.

Müəllif: - O ömür ki, vətəninə, millətinə və onun gələcəyi naminə yaşanır, deməli o ömür şərəfli ömürdür. Bəli, Qalib Hümbətov adlı şəxsiyyət də o şərəfli ömrü yaşamışdır.

Az f 309379

Azərbaycan Milli Kitabxanası

## Ata ocağı

**Əhmədov Abbasəli Hümbət oğlu** *(Qalib Hümbətovun ata babası)*

1917-ci ildə Qoşabulaq kəndində anadan olmuşdur. Aqronomluq üzrə təhsil almışdır. O, "İnqilab" kolxozunda aqronom, taxıl üzrə hesablayıcı və anbardar vəzifələrində çalışmışdır. 1960-cı illərdə dükanda işləmiş, ticarətlə məşğul olmuşdur. El oba məhəbbəti, hörməti qazanmış Abbasəli kişi sadəliyi, alicənablığı və gözütoxluluğu ilə tanınmışdır.

Hər kəsə əlindən gələn köməyi əsirgəməyən Abbasəli kişinin bu gün adı gələndə onu dəyərli, xeyirxah, hamının harayına yetən bir insan kimi xatırlayırlar.



*Abbasəli kişi həyat yoldaşı Suqra xanım övladları ilə*





Kolxoz dövrü kolxozun rəhbərliyi tərəfindən hər kəsə əlavə taxıl, un və digər məhsullar veriləndə Abbasəli kişi deyərmiş:

- Mənim payıma düşən məhsulları imkansızlara verin.

Morullular nəslinin genetik kod xüsusiyyətləri əsasən sadəlikdən, səmimiyyətdən, elə-obaya sonsuz bağlılıqdan və başdan-başa Vətənpərvərlikdən ibarətdir. Bütün bu dediklərimizin təsdiqini Abbasəli kişinin ocağında dünyaya göz açan qızı Dilşad xanım Əhmədovanın Qarabağ savaşı başladığı gündən səngərdən-səngərə adlaya-adlaya kamerasının yaddaşına köçürərək əbədiləşdirdiyi gərəkli tarixi faktlarda və nəvəsi Qalib Cavanşir oğlu Hümbətovun Aprel döyüşlərində göstərdiyi qəhrəmanlıqda görə bilərik.

Abbasəli kişi qayğıkeş ata, dəyərli ailə başçısı olmuşdur. O, "Şərəflər" nəslindən Süleymanova Suqra Abuzər qızı (1923-2017) ilə ailə həyatı qurmuş, bu evlilikdən onların Cavanşir, Məleykə, Mileylə, Qənirə, Arif, Şövkət, Nazim, Roza, Dilşad, İlqar və Vüqar adlı övladları dünyaya gəlmişdir.

Suqra xanım SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə "Qəhrəman ana" fəxri adına və qızıl medala layiq görülmüşdür.

**Hümbətov Cavanşir Abbasəli oğlu**

25 dekabr 1943-cü ildə Qoşabulaq kəndində anadan olub. Keşişkənd kənd orta məktəbini və Sumqayıt Energetika Texnikumunu energetik ixtisası üzrə bitirib. Sumqayıt Boru-Prokat Zavodunda usta, iş icraçısı



vəzifələrində işləyib. İctimai işlərdə daha fəal olduğuna və partiya məktəbini bitirdiyinə görə komsomol komitəsinin üzvü seçilib.

Cavanşir Hümbətov Sumqayıt şəhərinin elektrikləşmə və transformatorların quraşdırılması işlərində birbaşa yaxından iştirak edib, iş icraçısı vəzifəsində işləyib və daha sonra Sumqayıt şəhər Lift İdarəsində çalışıb. Üzərinə düşən vəzifələri 40 il şərəf və ləyaqətlə yerinə yetirən Cavanşir müəllim çalışdığı kollektivdə daim iş yoldaşlarının və rəhbərliyin dərin hörmətini qazanıb, bacarıqlı kadr kimi tanınıb.

Cavanşir müəllim həmkəndlisi "Kalvayı Oruclu" nəslindən 1948-ci il təvəllüdlü Hümbətova (Həsənova) Fəridə Ələkbər qızı ilə ailə həyatı qurub. Fəridə xanım Gəncə Tibb Texnikumunun "Mamalıq" fakültəsini bitirib. Sumqayıt şəhər Təcili Tibbi Yardım Xəstəxanasının "Travmatologiya" şöbəsində, kiçik əməliyyat otağında 45 il tibb bacısı vəzifəsində çalışıb. Nümunəvi işi ilə həmişə örnək olmuşdur.

### Övladları

**1. Hümbətov Qalib Cavanşir oğlu.** 09 may 1978-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur. 26 N-li Sumqayıt şəhər orta məktəbini bitirib. Arzusu həkim olmaq idi. Azərbaycan Tibb Universitetinə qəbul olunsa da, daxili bir hiss onu hərbçi olmağa səsləmiş və - mən hərbçi olacağam, - deyib Ali Birləşmiş Komandanlıq Məktəbinə qəbul olmuşdur. İlk gündən savadı, bacarığı və qabiliyyəti ilə kursant yoldaşları arasında seçilən Qalib Hümbətov məktəb rəhbərliyinin də diqqətini özünə cəlb etmişdir. Məktəbi yüksək qiymətlərlə bitirən Qalib Milli Ordu sıralarında zabit kimi ilk xidmətinə Ağcabədi rayonundakı N saylı hərbi hissədə leytenant rütbəsində taqım komandiri kimi başlamış və sonra bölük komandiri vəzifəsində fəaliyyətini davam etdirmişdir. Get-gedə digər hərbi hissələrə dəyişdirilərək yüksək vəzifələrə təyin olunan Qalib Hümbətov komandanlığın yüksək etimadını qazanmış və bacarıqlı komandir kimi tanınmışdır.



*Qalib Hümbətov anası Fəridə xanımla*

Onun komandirlik bacarığı, şəxsi heyətə qarşı olan münasibəti elə qurulmuşdur ki, öyrənmək, öyrətmək və icra etmək devizi əsgərlər üçün bir qanuna çevrilmişdir. Biliyi, bacarığı və nizam-intizamlılığı ilə daim şəxsi heyəti ruhlandıraraq - Vətənimizin hər qarışı üçün canımızdan







keçməyə hazır olmalıyıq çağırışı edərmiş. Bakı Birləşmiş Komandanlıq Məktəbinin 2 il magistr şöbəsini bitirərək generallığa qədər yüksələcək yolu uğurla başlasa da, səhhətindəki ağrılar ona maneçilik törətməyə başlamışdır. Bunlara baxmayaraq səbr, dəyanət və iradə nümayiş etdirən Qalib - "Biz yatmış şirik, bizi oyatmayın" deyib Aprel döyüşlərinə atılmışdır. "İldırım sürətli hücum" adlandırdığımız bu döyüşdə hər bir Azərbaycan döyüşçüsü bir alınmaz qalaya çevrilmişdi.

Qardaşı Xaliqin dediklərindən: - "Lələtəpə" yüksəkliyi uğrunda gedən döyüş haqqında soruşanda, Qalib yerindən atılaraq döyüşə hazıram əmrini icra edirmiş kimi danışar və gözləri yaşarar, dostlarını xatırlayardı. Qalib deyirdi: - Döyüşün şiddətli anları idi, birdən elə bil sifətimə qaynar su tökdülər. Bir anlığa özüm-özümə var - gəl edərək, - görəsən bu isti şey nə idi, - deyə düşündüm. Ətrafa göz gəzdirəndə gördüm ki, dostumun beyin qapağı dağılıb, sən demə sifətimə tökülən o isti şey onun beyin qatığıymış. O





biri tərəfdə isə yenə bir gizir dostum beynindən yaralanmışdı və al qan içində düşmənə atəş açırdı. Həmin giziri çiyinlərimə götürərək təxminən 50 metr geriyə apardım və yenidən öz mövqeyimə qayıtdım.

Bilirsiniz, müharibə vaxtı ölümü düşünmək yada düşmür. Şəhidlik zirvəsinə yüksəlmək xoşbəxtlikdir deyirik. Bu ali adı qazanmaq hər bir insana nəsib olmur. Mən də şəhid olmaq istəyirdim, amma Tanrı qorudu. Bəli, Tanrının işinə qarışmaq olmaz, deyib, şirin canı ilə mübarizə edirdi. Sonuncu xidməti borcunu Tovuz rayonundakı N saylı hərbi hissədə polkovnik-leytenant rütbəsində yerinə yetirirdi. Şiddətlənən ağrılar onu bu şərəfli yoldan döndərdi, çiyinlərinə zər-xara general poqonunu taxmaq, general mundiri geymək arzularını yarımçıq qoydu.

Qalib Hümbətov alicənab, şərəfli, ləyaqətli, bacarıqlı komandir, əsl Vətənpərvər qəhrəman olmuş və bir çox şəxsi keyfiyyətləri ilə çeçilmişdir. İdmanın cüdo növü ilə məşğul olmuş, bərbərliyi, yaxşı yazı yazmağı, yəni xəttatlığı da bacarmışdır. Din-iman, Allah adamı olmuş, namaz qılmışdır. Dostluğa sədaqətli və səxavətli olan Qalibin çoxlu dostları olmuşdur.

Ailəlikcə namaz qılırlar. Doğulduğu ailədə daim halallığı, sadəliyi görən Qalib hər bir kəsə qarşı çox səmimi olmuşdur. Amma belə bir deyim var: - "sən saydığını say, gör fələk sayır". Vətənini canından çox sevən Qalib son anlarında belə qürurlu baxışları, qaməti və zabit şərəfi ilə ölümün gözünə dik baxmış, ufuldamadan, sızıldamadan, əzəmətli palıd gövdəli cüssəsi ilə xəstəliklə çarpışaraq ayaqda məğrur dayanmışdır.

03.02.2018-ci il səhər saat 08.25 anını Qalibin əzizləri, onu tanıyan və onu sevənlər heç vaxt unutmayacaqlar. O ayrılıq anlarını qardaşı Xaliq için-için qovrula-qovrula belə nəql etdi: - Qalib son anlarını yaşayırdı, dostları sağ olsun, qan verirdilər. Son dəfə qanı özüm verdim, o sol əlimi buraxmırdı, gözləri gözümə zillənmişdi, ürəyi ürəyimə köçmüşdü. Bağrıma basdım, elə sarılmışdır ki, buraxmırdı. Unuda bilmirəm o anları, nəbzinin vurmasını. Və beləcə o, qucağımda gözlərini əbədi yumdu, durna qatarından ayrılan durna kimi Sumqayıt şəhər qəbristanlığındakı əbədi yuvasına köçdü.

09 may 2018-ci ildə 40 yaşı tamam olacaqdı. İndən sonra hər il Qalibin əzizləri və onu tanıyanlar 09 may tarixini Qələbə günü kimi xatırlasalar da, onun ruhunun 40 yaşında anacaqlar.

Cavanşir ata, Fəridə ana, Xaliq qardaş, Səkinə bacı, sizin hər biriniz daim Qaliblə sizlər fəxr edəcək və qürur duyacaqsınız. Çünki Qalib cismən sıralarımızda olmasa da əbədi olaraq qəlblərə köçmüş əsl Vətəndaş, əsl zabit və əsl Qəhrəmandır.

Qalib Hümbətov nümunəvi xidmətlərinə görə dəfələrlə komandanlıq tərəfindən fəxri fərman, təşəkkürnamələr, orden və medallarla təltif olunmuşdur.

Allah rəhmət eləsin, qəbri cənnət-behişt olsun! Amin!

**2. Hümbətov Xaliq Cavanşir oğlu** 07.07.1979-cu ildə Qoşabulaq kəndində anadan olub. 26 N-li Sumqayıt şəhər orta məktəbini bitirib. Elektrik cərəyanı vurması ucbatından instituta qəbul sənədlərini verə





bilməmişdir. Amma idmanın cüdo növü ilə məşğul olmuş və 2000-ci ildə Bakı şəhərində keçirilən respublika yarışının qalibi olmuşdur. Xaliq Naxçıvan Muxtar Respublikasında baş çavuş rütbəsində ləyaqətlə hərbi xidmət borcunu yerinə yetirmişdir. O, mahir atıcı olmuş, bacarığı ilə fərqlənmişdir. Həqiqi hərbi xidmət borcunu nümunəvi yerinə yetirdiyinə görə komandanlıq tərəfindən dəfələrlə təşəkkürnamələrlə təltif olunmuşdur.



***Cavanşir müəllimin övladları: Qalib, Xaliq və Səkinə xanım***

Xaliq ailəlikcə namaz əhli, din-iman, Allah adamıdır. Səmimi, əxlaqi dəyərləri ilə çoxlu dostlar qazanmışdır. Daim haqqı, ədaləti hər şeydən uca tutan Xaliq layiqli ailə başçısıdır. O, xalası qızı "Kalvayı Oruclu" nəslindən Tünzalə Fikrət qızı ilə ailə həyatı qurub və bu evlilikdən İlkin, Fatimə və Əbülfəzl adlı övladları dünyaya gəlib.

**3. Hümbətova Səkinə Cavanşir qızı** 1981-cı ildə Sumqayıt şəhərində anadan olub. Ailəlidir, 3 övladı (1 oğlu, 2 qızı) var.

Qalib Hümbətovun övladları:



*Cavid*



*Coşqun*



*Aytac*

# II FƏSİL

## Məktəb illəri, ömrümün ən şirin duyğulu, qayğısız günləri

## Zabit andı

*Sumqayıt şəhəri 26 saylı orta məktəbin direktoru: Tərlanə Yavər qızı NAĞIYEVA*



Qısa arayış: Tərlanə Nağıyeva 28 iyul 1967-ci ildə Sumqayıt şəhərində anadan olub. Əslən ulu Naxçıvan şəhərindəndir. Sumqayıt şəhəri 26 saylı orta məktəbi başa vurub. N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) İbtidai təhsilin metodikası və pedaqogikası fakültəsini bitirib. İlk pedaqoji fəaliyyətə 1986-cı ildə Sumqayıt şəhər 18 saylı orta məktəbdə ibtidai sinif müəllimi işləməklə başlayıb, 1 il orada işlədikdən sonra 1987-1990-cı illərdə Sumqayıt şəhər 25 saylı orta məktəbdə, 1991-1993-cü illərdə Mingəçevir şəhər 8 saylı orta məktəbdə ibtidai sinif müəllimi, 1993-1994-cü illərdə Sumqayıt şəhərindəki "Evtikən" firmasında kadr texnik, 1994-2009-cu illərdə Sumqayıt şəhər 26 saylı orta məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini, 2009-cu ildən hal-hazıradək həmin məktəbin direktoru vəzifəsində işləyir.

Sumqayıt şəhərinin aparıcı məktəblərindən olan 26 saylı orta məktəbin həyatinə ayaq basırıq. Bura haqqında danışdığımız qəhrəmanımız Qalib Hümbətovun orta təhsil aldığı təhsil ocağıdır. Bizi bura çəkib





gətirən əsas faktlardan biri dərs dediyi müəllimləri, şagird dostları və onu tanıyan digər dostlarının ürək sözləri, şirin xatirələrini qələmə almaq idi. Məktəbin girişində şəhid Məmmədov Vüqar Möhsüm oğlunun əziz xatirəsinə ucaldılmış ehsan bulağı bu təhsil ocağında təhsil almış 12 nəfər şəhid qəhrəmanın ruhuna olan hörmət ehtiramın göstəricisidir desək yanılmarıq. Daha sonra məktəb binasına daxil olanda şagirdlər zümzümə ilə hərbi marş deyərək sıraya düzülürdülər. Onlara hərbi müəllim Qabil Mövluş oğlu Əliyev hərbi vətənpərvərlik dərsinin incəliklərini yüksək pedaqoji fəaliyyəti ilə çatdıraraq sıra əmrlərini verirdi, - Farağat, irəli addımla marş və s. Və beləcə məni iş otağının qarşısında qarşılayan məktəb direktoru Tərlanə müəllim-Xoş gəlmisiniz, eşidirəm. Vaxtilə məktəbinzin məzunu olmuş Qalib Hümbətov adlı qəhrəmanın haqqında kitab yazırıq və sizin də ürək sözlərini eşitmək üçün bu təhsil ocağına təşrif buyurmuşuq.

Tərlanə müəllim: -Mən onu tanıyırdım və şərəf duyuram ki, Qabil Hümbətov kimi qəhrəman bu məktəbin məzunu olmuşdur.

Simasına xüsusi yaraşıq verən eynəyini çıxaran Tərlanə müəllim məni səmimi qarşıladıqdan sonra müəllimlərə lazımi tapşırıqlarını deyə-deyə, bilirsinizmi, 2 gün bundan öncə Aprel döyüşləri ilə bağlı N saylı hərbi hissədə şagirdlərimiz maraqlı çıxışlar ediblər deyib, -mobil telefonunda həmin foto anları mənə göstərdi. Həqiqətən məktəb rəhbərliyindən çox şey asılıdır. Bəli, məktəb binasının giriş dəhlizində Ümummilli lider Heydər Əliyev cənablarının, Möh-

tərəm Prezident, Ali Baş Komandan İlham Əliyev cənablarının və Azərbaycan Respublikasının I Vitse-Prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın rəsmi və məktəb həyatı ilə bağlı görüşlərindən ibarət foto lövhə, Azərbaycanın Milli Qəhrəmanları, Məktəbin şəhidləri və Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun foto lövhələri asılmışdır. Bir-birinin ardınca səliqə ilə düzülmüş bu foto lövhələr sanki şagirdlərə Azərbaycanı dünyaya tanıtmaq əzmini yaşadır. Və bir də həmin foto lövhələr şagirdlərdə yaxşı oxumaq, vətənə gərəkli layiqli övlad olmaq kimi məsuliyyəti bir daha artırır.

Bu kimi vacib hərbi vətənpərvərlik missiyasının yerinə yetirilməsi işinin təşkili və həyata keçirilməsini başda Tərlanə müəllim olmaqla 114 nəfərdən ibarət olan müəllim heyəti şərəflə yerinə yetirir. 1200 nəfərlik şagird kontingenti isə məktəb həyatində oxunan marş sədaları ilə öyünərək tezliklə Qarabağa dönəcəyimiz günü gözləyirik, -deyirlər. Bütün bu kimi təbliğati-tədbirlərin həyata keçirilməsi işini Tərlanə müəllim ilə çiyin-çiyinə təşkilatı işlər üzrə direktorun müavini Arzu Hadı qızı Şükürova yerinə yetirirlər.

Budur marş sədaları eşidilir, baxıb qürur duyursan necə də iri, iti addımlarla irəliləyən şagirdlərimiz var. Əhsən!Əhsən! Onların hər biri sabahın ziyalısı, hərbçisi, necə deyərlər əsl qəhrəmanları kimi yetişirlər. Əlbəttə, başda Tərlanə müəllim olmaqla bütün müəllim kollektivinin pedaqoji zəhməti hesabına yetişəcəklər. Məktəbin dəhlizində Qalib haqda foto lövhənin yeri görünür. İnşallah, oradakı foto lövhələrin sırasına unudulmaz Aprel döyüşlərinin qəhrəmanı, şərəfli





zabit Qalib Cavanşir oğlu Hümbətovun da foto lövhəsi asılacaq və ona baxan hər bir kəs qürur hissi keçirəcək!

Müsahibəmiz yekunlaşır, Tərlanə müəllimin rəhbərlik etdiyi təhsil ocağından xoş təəssüratlarla ayrılırıq.

## Bacarığı və istedadı ilə fərqlənərdi

*Orta məktəb müəllimlərindən:*
*Gülbahar MANAFOVA*
*Minayə MAHMUDOVA*


Gülbahar Manafova


Minayə Mahmudova

Zaman keçir, illər ötür sən isə bizim xatirələrimizdə dəyişməz qalacaqsan. Səndə olan təmizlik, saflıq, zəngin mədəniyyət, düzgün düşüncə, mədəni davranış, intizamlılıq olduğu kimi qalacaqdır. Bütün bu keyfiyyətlər hamısı Qalibdə cəmləşmişdir. Qalib bu sözləri eşitsəydi deyərdi:

-Minayə müəllim mən bunların hamısına layiqəm? Doğrudanda bu belədir. O, tez-tez məktəbin tarix müəllimi Mirzəyev Həmidin otağında olardı, maraqlı tarixi hadisələrə qulaq asardı.

Hərbi hazırlıq dərslərini səbirsizliklə gözləyirdi. Hərbi hazırlıq müəllimi A.Əlfağadan silahlar haqqında öyrənər, onu düşündürən suallara cavab alardı.

Məktəbin biologiya müəllimi M.Gülbahar müəllim Qalibi belə xatırlayır:

O illərdə ağac əkmək həftəsi yaz-payız aylarında tez-tez keçirilirdi. Bu məktəbin əmək və biologiya





müəllimlərinə tapşırılmışdı. Biz ağac tapa bilmirdik. Həmin gün onlara mənim dərsim var idi. Dedim ki, bizim həyətdə çinar ağacı var, mümkün olsa ondan əkərik. Bunu kəsməyi hansınız bacararsınız? Həmin gün axşamüstü Qalib üç nəfər dostu ilə mişar gətirib ağacı budadılar və məktəbyanı sahədə əkmək üçün hazırladılar. O, həmişə ictimai işlərdə fəal iştirak edər, bütün işlərin öhdəsindən gələrdi. Uşaqlıqdan texniki fənlərə böyük maraq göstərərdi. Humanitar fənləri zəif oxuyardı. Bu da onun həyat yolu imiş. Son zəng zamanı hamı xatirə yazdırardı. Qızlar önlüyünə, oğlanlar isə köynəyinə, uşaqlara xoş sözlər yazırdıq. Köynəyini mənə uzatdı və dedi: -Elə bir söz yaz ki, mən o sözü hər zaman xatırlayım. Kimə nə yazılsa heç kim oxumazdı. Qalib növbəti dərsə gələndə mənə təşəkkürünü bildirdi. Ona bu sözləri yazmışdım: "Razı olma heç zaman kölələrdə olasan, çalış yarpaq olsanda özün kölgə salasan". Bu misralar mənim həyat amalıma çevriləcəkdir dedi.

Allah sənə rəhmət etsin, qəbrin nurla dolsun. Həmişə xatırlanacaqsan, qəlblərdə yaşayacaqsan.

## Vətən öz oğulları ilə fəxr edir

*Azərbaycan dili və ədəbiyyat müəllimi:*
*Zenfira MURADOVA*



Həyat çox qəribədir,
yollar çətin
Öz bəxti, öz taleyi vardır
hər kəsin

Deyirlər ki, həyat bir pəncərədir, hər gələn baxıb gedər. Yox! Yox! Bu qoca cahana elə oğullar gəlib ki, dünyanı yerindən oynadıb, insanlara insan kimi yaşamağı, nəsillərə qəhrəmanlığı öyrədib. Belə oğullardan biri polkovnik-leytenant Qalib Cavanşir oğlu Hümbətovdur. O, 26 N-li tam orta məktəbin məzunu olmuşdur.

Mən Qalibə Azərbaycan dili və ədəbiyyat fənnindən dərs demişəm. Bildiyimiz kimi, respublikamızda 18 yaşına çatmış hər bir vətəndaş əsgərlik xidmətini yerinə yetirməlidir. Qalib də bu xidməti özünə borc bilib hərbi xidmətə yollandı. Onun ürəyindən "Vətən", "Azərbaycan" kəlməsi düşmürdü. Onun da hamı kimi bir arzusu var idi: -düşməni məğlub etmək, düşmənə qan uddurmaq, şəhidlərimizin su yerinə axıdılan qanını yerdə qoymamaq. Bəlkə ona görə də o, Aprel döyüşlərinin iştirakçısı olub. Qalib mənim yaddaşımda necə qalıb? O, ruhən sağlam, idmanla





məşğul olan bir şagird kimi yaddaşımda qalıb.O, çox layiqli bir oğul idi, həmişə qızlara hörmətlə yanaşardı, onları öz bacısı kimi istərdi. Çox tərbiyəi, bacarıqlı idi. Yadımdadır, Azərbaycan dili dərsi idi, şagirdlər inşa yazmalı idilər. Mövzuları lövhəyə yazdım. Mövzulardan biri bu idi: "Vətən öz oğulları ilə fəxr edir".

Bu vaxt Qalib mənə sual verdi: "Müəllim, vətən hansı oğulları ilə fəxr edə bilər? -özü də cavab verdi ki, vətən oğulları ya qəhrəmanlıq göstərməli, ya da şəhid olmalıdır ki, vətən onlarla fəxr etsin".

Qalib nə biləydi ki, özü də vətənin layiqli övladlarından biri olacaq. Qalib nə biləydi ki, özü də şəhidlik zirvəsinə ucalacaq. Qalib nə biləydi ki, polkovnik-leytenant Qalib Cavanşir oğlu Hümbətov kimi yaddaşlarda qalacaq.

## Torpağın daşın sağ olsun...

*Orta məktəb dostu: Şahin Maşallah oğlu ALLAHVERDİYEV*



Qısa tanışlıq: Şahin Allahverdiyev 1978-ci ildə Sumqayıt şəhərində anadan olub. Əslən qəhrəman, qartallar yurdu Laçın rayonunun Hoçaz kəndindəndir. 1995-ci ildə Sumqayıt şəhər 26 saylı tam orta məktəbi əla qiymətlərlə başa vurub. 1996-cı ildə Azərbaycan Dövlət İqtisad Universitetinə daxil olub, 2000-ci ildə həmin universiteti müvəffəqiyyətlə bitirib. 2003-cü ildən əmək fəaliyyətinə başlayıb. Hazırda Azərsu ASC-nin Nəsimi Sukanal İdarəsində mühəndis-qrup rəhbəri vəzifəsində çalışır.

Ailəlidir, 2 övladı var.

Dostum haqqında xatirə danışmaq nə qədər çətin olsa da həm də qürurvericidir. Belə bir vətən oğlunu yaxından tanımaq hər kəsə nəsib olmur. İstərdim ki, mən Qalibi tanıdığım kimi hər bir Azərbaycan gənci də tanısın və onu özünə örnək seçsin. Mənim Hümbətov Qalib Cavanşir oğlu ilə tanışlığım orta məktəb illərində olub. Hər ikimiz də 1985-1995-ci illərdə Sumqayıt şəhər 26 saylı orta məktəbdə təhsil almışıq. İlk tanışlıqdan diqqətimi çəkən Qalib sonralar ən etibarlı dostuma çevrildi. Məktəb illərimiz birlikdə





keçib. Mən adətən çılğın və səbirsiz olmuşam. O, çox sakit təmkinli bir sözlə sinifdə uşaqlara nümunə olacaq bir xasiyyətə malik idi. Biz sinif yoldaşlarımızdan: - Qalib, mən, Mirzəyev Vüqar, Zərbəliyev Fəqan, Abbasov Ceyhun, Məmmədov İlham və Rzayev Ramin ən yaxın dostlar olmuşuq. Orta məktəb illərində təhsil və tərbiyəsi ilə insanlara münasibəti ilə hamıdan fərqlənməyi bacaran Qalib vətənə və millətə sədaqəti ilə yaddaşımıza əbədi həkk olundu. Onunla bağlı olan xatirələrimi yalnız xoş təəssüratla, ehtiramla yad edirəm.

Bir dəfə mən özümü pis hiss elədiyim üçün məktəbə getməmişdim. Qalib dərsdən sonra evə getmədən birbaşa bizə gəlmişdi. Mənim zəhərləndiyimi bilən kimi məni həkimə aparmağa çalışdı. Avtobusda birdən halım çox pis oldu. Yadıma düşən o oldu ki, Qalibə yavaşca halım pisdi dedim. Bir də ayılanda artıq xəstəxanadaydım, Qalib də başımın üstə. Qalibin anası Fəridə xanım tibb işçisi idi. Baxmayaraq ki, mən o vaxt Qalibdən çox ağır idim məni təcili tibbi yardıma çatdırmışdı. Balaca qardaşı Xaliq xəstəxanada yatanda hər axşam birimiz yanında qalırdıq, ona qulluq edirdik. O, çox böyük qəlbə sahib insan idi.

Məktəbi bitirdiyimiz il Qalib Ali Hərbi Akademiyaya daxil oldu. Anası Fəridə xala atası Cavanşir dayı Qalibi elə vətənpərvər ruhda böyütmüşdülər ki, onun məhz bu sahəni seçməsini gözləyirdik. Torpaqlarımızın yağı tapdağında olması onu çox incidirdi. Təhsilini tamamladıqdan sonra müxtəlif cəbhə bölgələrində hərbçi kimi xalqına şərəflə, ləyaqətlə xidmət edirdi. Olduğu hər bir bölgədə yerli əhali ilə qaynayıb-

qarışardı, elə bil ki, burda doğulub. Vətənin hər bölgəsi hər qarışı onun üçün əziz idi. Tez-tez xatırladığı misralar vardı:

Vətən başa çox iş gələr,
Baş əymə başın sağ olsun,
Biz ölməyə doğuluruq,
Torpağın daşın sağ olsun.

Bu misralar bir polkovnik-leytenantın bir vətənpərvərin bir igid oğulun devizi idi.

Mənim iki oğlum var. Onlara həmişə Qalib haqda danışıram. Onun necə insan olduğunu xatırlasınlar və onun kimi vətəninə bağlı, cəsur olsunlar. Qalib kimi qəhrəmanlar daim yad edilməlidirlər!

Mən Qalib haqqında günlərlə danışa bilərəm. Ömrünün 40-cı ilində rəhmətə getdi. Onun haqqında keçmiş zamanda danışmaq çox çətindir. Amma Qalib hər hər zaman mənim, eləcə də sevənlərinin qəlbində yaşayacaqdır. Ali Baş Komandanın əmri ilə torpaqlarımızın işğaldan azad olunduğu gün Qalibin nigaran ruhu da şad olacaq.

Allah rəhmət eləsin! Ruhun şad olsun əziz Qardaşım!





## Qalib dostluq, mərhəmət körpüsü idi

*Orta məktəb dostu: Ceyhun İdris oğlu ABBASOV*



Qısa tanışlıq: Ceyhun Abbasov 16 aprel 1978-ci il ildə Sumqayıt şəhərində anadan olub. Sumqayıt şəhər 26 saylı tam orta məktəbi bitirib. 1995-1999-cu illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə-kredit fakültəsini bitirib. 2000-ci ildən hal-hazıradək Dövlət Sosial Müdafiə Fondunda əmək fəaliyyətinə başlayıb, məsləhətçi, baş məsləhətçi, sektor müdiri, Sumqayıt şəhər, Abşeron, Tovuz və Suraxanı rayonlarında müdir vəzifəsində işləyib. Hazırda Əmək və Əhalinin Sosial-Müdafiəsi Nazirliyində Suraxanı rayon şöbəsində çalışır.

Ailəlidir, 3 övladı var.

Elə bir insan haqqında danışacağıq ki, onun adı çəkiləndə özünü vətən, el-oba , dost-tanış uğrunda fəda edən bir qəhrəman. Xəyallarla qanadlanıb onun həyatda ilk dəfə üzünü gördüyüm baxça illərinə dönürəm. Ən şıltaq, dəcəl, heç nəyi vecimizə almadığımız rahat bir dövr. Baxça dövründən sonra orta məktəb illərində bir-birimizi daha yaxından tanıdıq. Get-gedə dostluq telləri gələcək həyatımızda bir-birimizə qarşı hörmət, ehtiram körpüsü yaratdı. Bu körpünü yaşatmaq və möhkəmlətmək hər birimizin

borcudur. Qalib ömrünün sonuna qədər dost borcunu ləyaqətlə yerinə yetirdi. O, sinif yoldaşları arasında özünəməxsus xasiyyəti ilə seçilərdi. Hər bir sinif yoldaşına qarşı diqqətli, qayğıkeş idi.

Ürəyində böyük arzuları varıydı. Həkim olmaq istəyirdi. Kimya müəllimimiz Eldar müəllim Qalibin gələcəkdə çox bacarıqlı həkim olacağına inanırdı. Lakin daxili bir hiss onun həkim yox, hərbçi olacağına təkan verdi. Amma digər fənləri də mükəmməl öyrənən Qalib - bütün fənləri dərindən öyrənməliyik,- deyərdi. O, ilk növbədə vətəni sevmək və onun layiqli övladı olmaq prinsipi ilə dostlarını oxumağa həvəsləndirərdi. Həqiqətən Qalib gələcəyin layiqli ziyalısı, savadlı, bacarıqlı zabiti və qəhrəmanı oğlu kimi tanındı. Əks halda həkim belə olsaydı inanıram ki, məşhur həkim olacaqdı. Qalib Tanrı tərəfindən dövlət, xalq üçün göndərilmişdir ki, xidmət etsin. 40 yaşı tamam olacaqdı, amma ömür vəfa etmədi. Doğuldu bir nur parçası, böyüdü halal, pak, xidmət etdi, şərəflə, ömür sürdü qartal ömrütək.

Əziz dostum hər zaman zirvədə olmusan, adın zirvələrdə çəkiləcək.





## Vətənin şanlı oğlu

*Orta məktəb dostu: Fəqan Malik oğlu ZƏRBƏLİYEV*



Qısa tanışlıq: Fəqan Zərbəliyev 06 sentyabr 1978-ci ildə Sumqayıt şəhərində anadan olub. Sumqayıt şəhər 26 saylı tam orta məktəbi başa vurub. Azərbaycan Texnologiya Universitetinə daxil olub, həmin universitetin mühəndis iqtisadiyyatı və idarəetmə fakültəsini bitirib. Hazırda Sumqayıt şəhər Texnologiyalar Parkı MMC-də sahə rəisi vəzifəsində işləyir.

Ailəlidir, 3 övladı var.

Fəqan qardaşla görüşümüzdən, məmnun olduq. Fəqan,- Sevinirəm, Qalib adlı əsl Azərbaycan oğlunun həyatını araşdırır, onun bu günükü, nəslə və gələcək nəsilə çatdırırsınız. Qayıdaq orta məktəb illərinə. Qaliblə oxuduğumuz dövrdə sinfimizdə 27-28 nəfər şagird olardı. Onu da qeyd edim ki, bizim sinfimiz A sinifiydi. A sinifi ilə yanaşı, B,C, E və s. sinifləri də demək olar ki, öz axarında idi. A sinfinə paralel siniflərdən seçmə şagirdlər cəlb olunurdu. Bununla da A sinfi təmayüllü sinif idi.

İlk sinif rəhbərimiz coğrafiya müəllimi rəhmətlik İpək müəllim olub. İpək müəllim vəfat etdikdən sonra fizika müəllimi Mahmudova Minayə müəllim sinif

rəhbərimiz oldu. Məktəbin direktoru isə coğrafiya müəllimi Zahidov Sərraf müəllim idi.

Mənim Qaliblə olan dostluğumu bağlayan tellər hər ikimizin idmanın cüdo növünə olan həvəsimiz olmuşdur. Sanki aramızda bir rəqabət var idi. İdmana aid olan hərəkətləri hansımız daha yaxşı edəcək, hətta qolgüləşdirərdik (armretlinq), bir sözlə, mən səndən güclüyəm prinsipiallığı ilə rəqabət aparardıq. Orta məktəbdə oxuduğu vaxtlarda ekranları zəbt etmiş aktyor Arnold Şvartsnegerin çəkildiyi filmlər onun idealı idi. Məşhur "Terminator" filmindəki kimi Şvartsnegerə oxşar hal-hərəkətlər etməkdən xüsusi zövq alardı. Məhz bu səbəbdən də ona "Terminator" deyərdik. İdmanla məşğul olmaq, dərslərini vaxtlı-vaxtında öyrənmək və üstəgəl bərbərlik, saz ifa etmək kimi fitri bacarığa malik idi. Bu səbəbdən də biz dostlar zarafatyana ona "saz oğlan" deyərdik. Və biz dostların çoxunun saçını qırxardı.

Möhkəm iradəyə malik idi, qarşısına qoyduğu məqsədə çatmaq üçün sonacan mübarizə aparardı. Hərbi Akademiyada təhsil alırdı. Amma xəstəlik ona çox maneçilik edirdi. Buna baxmayaraq o, yenə müalicə oluna-oluna Akademiyaya gedər təhsilini davam etdirərdi. Tez-tez görüşərdik, hal-əhval olardıq. Kiçik yaşlarımızdan bir evli kimi olmuşuq. Ölümündən bir neçə gün əvvəl telefonla zəng edib danışdıq. Bir neçə gündən sonra ailəlikcə ata-baba yurdumuz Siyəzən rayonuna getdik.

Fəqan: - Rayondan qayıtmışdım. Qalibə zəng etdim, (Fəqan qardaşımız bir az dayandı...) telefonu götürdülər Alo, salam Qalib...salam Fəqan





Duruxdum, qardaşı Xaliq idi. Qardaşının səsi də Qalibin səsinə oxşayırdı.

Xaliq: -artıq Qalib yoxdu, torpağa tapşırılıb... Əziz oxucu, dostun dünyadan köçməsi çox ağır bir dərddi. Qalib, çox istəklilərini, əzizlərini, dostlarını əbədi tərk etdi. O, xalqın oğlu adını qazanıb. Xalqın yaddaşında qalmaq ona nəsib oldu. Qalib Hümbətov Haqqın dərgahına qovuşsa da, o, hər zaman anılacaq. Çünki, onun adı və əməlləri daimi yaşardır.

Allah rəhmət eləsin! Uyuduğu torpaq cənnət-behişt olun! Amin!

# III FƏSİL

# Kursant illəri

## Vətən qəhrəman oğullarını haraylar

*Elxan Kərim oğlu HÜSEYNOV*
*Ehtiyatda olan polkovnik-leytenant*



Qısa arayış: Elxan Hüseynov 03 oktyabr 1979-cu ildə Sumqayıt şəhərində anadan olub. Bakı Ali Birləşmiş Komandirlər Məktəbini bitirib.

1990-cı illərin əvvəlləri bizim üçün çox ağır illərdən idi ki, bu da bizim uşaqlıq illərimizə təsadüf edirdi. Bu illər Sovet hökumətinin dağılması və bu dövrdə tarixi düşmənimiz olan ermənilərin Qarabağı işğal etməsi və hakimiyyət uğrunda çəkişmələrin baş verdiyi bir dövr idi. Həmin qanlı-qadalı illər bizim gənclik illərimizi tez əlimizdən aldı, hətta 1973-cü ildə dünyaya göz açan həmvətənlilərimizin böyük əksəriyyəti düşmən gülləsinə tuş gəldi. Biz gənclər yaşımızdan böyük problemlər haqda düşünməyə başladıq. Və bu illər ərzində dostun, düşmənin, mərdin, namərdin, yaltağın, yalançının kim olduğunu daha yaxşı anlamağa başladıq. Həmin dövrlər içimizdə vətənə məhəbbət, torpaqlarımızı düşməndən azad etmək kimi hisslər bizi cəbhəyə səsləyirdi. Mənim 18 yaşım olanda artıq Qarabağ işğal olunmuş və 2 ilə yaxın idi ki, atəşkəs müqaviləsi imzalanmışdı. Lakin mənim və mənim kimi gənclərin sinəsi vətən eşqilə alışıb yanırdı.





Vətən uğrunda, vətən harayına yetmək, vətənin müdafiəsinə qalxmaq və düşmənləri torpaqlarımızdan qovmaq üçün hərbçi olacağıma and içdim. Və beləliklə, 1996-cı ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə daxil oldum. Bu məktəbə daxil olduğum gündən özümə qəlbimə yaxın bildiyim bir neçə nəfər yoldaşlarla tanış oldum. Bunlardan biri də Hümbətov Qabil Cavanşir oğlu idi. Kursantlıq illəri keçdikcə bizim yoldaşlığımız daha da möhkəmləndi və biz dost olduq. Bizim bu dostluğumuz ağac budağı kimi budaqlandı və pöhrələndi. Mən Qalibin saflığına, mehribançılığına, dosta sadiqliyinə o qədər ürəkdən inanırdım ki, onu öz qardaşlarımdan bir an belə ayrı hiss etməmişəm. Bu gün də Qalibin ata, anasını öz ata, anam kimi çox istəyirəm.

Biz buraxılışdan gələndə evdəkilərlə salamlaşıb hal-əhval olduqdan sonra çalışırdıq ki, görüşüb günümüzü xoş keçirək. Bunun üçün ya Qalib bizə, ya da ki, mən onlara qonaq gedirdim. Hamı kimi mən də hiss etmişəm ki, insan öz evi kimi başqa heç bir yerdə rahatçılıq tapmır. Lakin mənim Qaliblə olan dostluğum hər zaman mənə onlarda olanda özümü evmizdəki kimi hiss etdirib.

Mən Qalib haqqında daha çox danışa bilərəm, amma nə qədər danışsam da qurtarası deyil. Qalib dostumun, qardaşımın Haqqın dərgahına qovuşması məni çox sarsıtdı. Mən dostuma Allahdan rəhmət diləyirəm. Allah onun və bizim günahımızı bağışlasın, o biri dünyamızı cənnətlik etsin. Allah Qalib dostumun valideynlərinə səbr versin. Amin!

## Unudulmaz qəhrəman



Arayış: Azayev Pərviz Əliqardaş oğlu. 1978-ci ildə Şamaxı rayonu Ərçiman kəndində dünyaya göz açmışam. 14 yaşıma qədər həmin kənddə yaşamışam və orta məktəbi də natamam olaraq həmin kənddə bitirmişəm. Orta məktəbin son illərində Qarabağ müharibəsinin gedişatı göz önündə idi. Kəndimizdən bir çox gənc, həmçinin əmim oğlu Vüqar da müharibədə iştirak edirdi. Elə o zamanlardan mən də orduya və hərbi geyimə qarşı həvəs oyandı. Cəmşid Naxçıvanski adına hərbi məktəbə qəbul olmağı qərara aldım və 1993-1996-cı illərdə həmin məktəbdə oxudum. 1996-cı ildə hərbi təhsilimi davam etdirmək üçün Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə (BABKM) daxil oldum.

27 iyul 1996-cı il idi. Biz, yəni C. Naxçıvanski adına hərbi məktəbdən BABKM-inə gələn kursantlar orada kafedralardan birinin qarşısında toplanmışdıq. Sonra orta məktəbi bitirib gələn kursantlar da bizim yanımıza toplaşdılar. Günortaya yaxın zabitlər gəldi, siyahılar oxundu və biz ixtisas üzrə fakültələrə, bölüklərə və tağımlara ayrıldıq.

Rəhmətlik Qaliblə ilk tanışlığımız elə ordan və o gündən başladı. Elə ilk gündən Qalibin istiqanlığı,





gülərüz və zarafatçıl olmağı mənim çox xoşuma gəldi. Bir neçə gün sonra artıq bizim yaxın münasibətimiz var idi və zaman keçdikcə bu yaxın münasibət artıq dostluğa çevrildi. Qalibin valideynləri əslən Gədəbəy rayonundan idi, amma Sumqayıt şəhərində yaşayırdılar. Mənim də bacılarım öz ailələri ilə birlikdə Sumqayıtda yaşadıqları üçün Qaliblə birlikdə həftə sonları və bayram günləri Sumqayıta gedirdik. Zaman keçdikcə bizim dostluq münasibətimiz daha da bərkiyir və bizim əhatəmiz böyüyürdü. Sumqayıtda yaşayan Elxan Hüseynov, Mingəçevirli Zaur İsmiyev və əslən Naxçıvanlı olan lakin onun da bacısı Sumqayıtda yaşadığı üçün bizimlə Sumqayıta gedib-gələn Vasif Rzayev də artıq bizimlə birlikdə idilər.

Çox gözəl və çətin günlər idi. Biz o illər ərzində bir-birimizi və ailələrimizi tanıdıq. Qalibin bir qardaşı və bir bacısı var idi. Elxanın isə üç qardaşı var idi. Biz dostlar tez-tez ya Elxan ya da Qalib gildə toplaşardıq. Qalib də Elxan da hər ikisi o zamanlarda aşiq olmuşdular, Qalib öz binalarında ikinci mərtəbədə yaşayan qonşunun qızını, Elxan da öz binalarında üçüncü mərtəbədə yaşayan qonşunun qızın istəyirdilər. Gecələr bəzən ruslar demişkən "samavolkaya" çıxırdıq. O zamanlar gecə saatlarında avtobus tapmaq da çətin olurdu. Salyanski kazarma deyilən yerdən (indiki Silahlı Qüvvələrin Təlim və Tədris mərkəzi) Tbilisi prospekti ilə piyada 20 yanvar dairəsinə qalxıb Sumqayıt marşrutlarına oturub Sumqayıta gedirdik.

Hərbi təlimlər, hərbi məktəbin özünə məxsus rejimi, dərslərin ağırlığı və sairə bizi ruhdan salmadı,

oxuduq sona qədər. Və beləcə hamımız məktəbi bitirdik, zabit olduq. 23 iyul 2000-ci il tarixdə bizim hərbi məktəbdən məzun tədbirmiz keçirildi, hamımıza leytenant rütbələri təqdim olundu. Sevincimizin həddi-hüdudu yox idi. sanki birdən-birə hamımız böyüdük. Necə deyərlər, uşaqlığın son gecəsi oldu. Səhəri gün iyulun 24-də Qalib, Elxan, Zaur və mən Şamaxıya bizim kəndə getdik. Çünki bir gün sonra iyul ayının 25-də mən evlənəcəkdim. Həyatımızın ən gözəl günləri idi. Kənddə qohumlarım və ailəmiz bizi sevinclə qarşıladı, hamımız zabit geyimində, leytenant rütbəsində idik. Rəhmətlik Qalibin yaxşı bər-bərlik qabiliyyəti var idi. Bizim həyətə çatan kimi Qalib yenədə şən zarafatlarından geri qalmayaraq hamı ilə zarafatlaşmağa başladı. Bir az sonra bir də baxdım ki, Qalib atamı stula otuzdurub saçlarını səliqəyə salır. Gecə yarısına qədər yedik-içdik, deyib-güldük. Səhəri gün Şamaxıda kəndimizdə toyum oldu.

Dostlarımla, o cümlədən Qaliblə toyum günü ayrıldıq və bir də nə zaman görüşəcəyimiz bəlli deyildi. Çünki hamımızın təyinatımız fərqli-fərqli regionlara verilmişdi. Qalib Ağcabədi, Elxan Naxçıvan, mən Fizuli ərazisində yerləşən hərbi birləşmələrə təyinat aldıq. Vasiflə Zaurun haraya təyinat aldıqların unutmuşam. Biz bir müddət görüşə bilmədik. O zamanlar da mobil telefon çox az adamlarda var idi, əlaqə saxlaya bilmirdik. 2001-ci ildə Fizuli rayonu ərazisində hərbi hissələrin birində təlim keçirilirdi. Mən təsadüfən Qalibi gördüm. Sevincimizin həddi-hüdudu yox idi. Qalib artıq evləndiyini dedi və bacısı Səkinənin də dostumuz Vasiflə nişanlandığı xəbərin verdi.





Bu xəbərlər məni çox sevindirmişdi. Həmin təlimdə üç gün bir yerdə olduq.

2002-ci ildə mən xidməti zəruriyyətlə əlaqədar Bakıda yerləşən hərbi hissələrin birinə təyinat aldım. Ondan sonra uşaqlar məzuniyyətə gəldikləri vaxt azından ildə bir dəfə görüşürdük. Artıq Qalib ata olmuşdu. Oğlunun kiçik toyunda da iştirak etdik.

Qalibin bitməz-tükənməz arzuları var idi. Həyata bağlı, optimist bir insan idi. Tez-tez yaxşı xəbərlərini eşidirdik. Hətta bir dəfə ön xəttdə erməni mövqelərinin arxasına keçərək bir neçə ermənini öldürdüyünü, bir erməni əsiri və bir neçə silahla geri döndüyünü eşitdim. Səhv eləmirəmsə buna görə medalla da təltif olunmuşdu.

2011-ci ildə Sumqayıtdan ev aldım. Bu şəhər mənə çox dogma idi, çünki ailə üzvlərim, qohumlarım və dostlarım bu şəhərdə yaşayırdılar. 2013-cü ildə mənim oğlumun kiçik toy məclisi olacaqdı, Qalibə zəng vurdum və dedim. Ön xəttdə xidmət etdiyi üçün toya gələ biləcəyinə inanmırdım. Amma o gəldi. Çünki Qalib əsl dost idi. Onu toyda görəndə çox sevinmişdim. Ondan bir müddət sonra Qalib həyat yoldaşı, iki oğlu və bir qizi ilə bizə qonaq gəldilər. Demək olar ki gecəyə qədər oturduq, keşmiş xatirələdən övladlarımıza danışdıq, toy kasetlərinə baxdıq.

Həmin ərəfələrdə Qalib Hərbi Akademiyaya qəbul oldu. Sevinirdi. Ən böyük arzularından birinin həyata keçdiyinə şükr edirdi. Bir gün səhər işə getdim. Hərbi hissəyə yeni çatmışdım ki Qalibdən mənim mobil telefonuma zəng gəldi. Cavab verdim, salamlaşdıq, hal-əhval tutdum, dedi ki gecədən bəri biraz nara-

hatçılığım var, deyəsən kor bağırsağım ağrıyır. Hospitalda tanıdığım həkim var ya yox deyə maraqlanırdı. Qalibi tanıdığım həkimə yönləndirdim. Yarım saat sonra Qalib mənə yenə zəng vurdu, bu dəqiqələrdə cərrahi əməliyyata girəcəyini dedi.

O gün Qaliblə maraqlanmadım, daha doğrusu zəng vurub narahat etmək istəmədim, düşündüm ki əməliyyatdan yeni çıxıb, sabah zəng vuraram, ya da ki birbaşa yanına gedərəm. Sonra eşitdiyim xəbər məni sarsıtdı. Əməliyyat əsnasında Qalibdə ağır xəstəlik aşkar olunmuşdu. Bir gün hospitala getdim, Qalibi əməliyyat edən həkimlə görüşdüm. İlkin mərhələdə çox ciddi bir vəziyyətin olmadığını dedi həkim. Amma uzun müddət və yaxşı müalicə olmağı lazım idi. Ailəmlə birlikdə gedib hospitalda Qalibi ziyarət etdik. yataqda idi. Həyat yoldaşı yanında, atası, anası da yanında idi.

Bir neçə gün sonra mən xaricə ezamiyyətə getdim 6 ay ezamiyyətdə oldum, Qaliblə telefonla tez-tez görüşürdük. Artıq xidmət yerində işinin başında idi. Amma müalicəsi davam edirdi. Azərbaycana qayıtdım. Bir dəfə Qalib bir neçə günlük məzuniyyətə gəlmişdi. Qısa müddətə görüşdük. Bir il sonra mən yenə ezamiyyətə getdim xaricə, telefonla hətta görüntülü görüşürdük Qaliblə. 2017-ci ilin sonları artıq Qaliblə gec-gec danışmağa başladıq. Narahat olduğunu hiss edirdim, çünki artıq ordu sıralarından təqaüdə çıxmışdı. Evdə müalicə olunurdu.

2017-ci ilin dekabr ayında bir gün Qaliblə telefonda bir neçə dəqiqə danışdıq, sonda Qalib nə zaman qayıdacağım barədə soruşdu. Mən də 2018-ci il yanvar





ayının 25-də qayıdacağımı bildirdim. Qayıdan kimi gedib ona baş çəkməyimi istədi. Dedi ki: Pərviz əgər sən qayıdana qədər mənə bir şey olmasa qayıdan kimi gəl səni görüm. Qalibin o sözü heç bir zaman mənim qulaqlarımdan çəkilməyəcək.

Mənim anam da eyni xəstəlikdən əziyyət çəkirdi. 2018-ci il yanvar ayının 4-də axşam anamın ölüm xəbərini aldım. Çox sarsılmışdım. Anamın dəfnində iştirak edə bilmədim. 20 günün necə keçdiyin dil ilə, yazmaqla ifadə etmək mümkün deyil. Yanvar ayının 25-də vətənə qayıtdım. İki gün sonra ayın 27-də Qalibi görməyə getdim. Məni görüncə sevindi. Ailənin yeganə kürəkəni və yaxın dostumuz Vasif də orda idi. 2-3 saat oturduq, danışdıq, dərdləşdik. Qalib üçün getdiyim ölkəyə xas olan xüsusi bir daşdan hazırlanmış təsbeh almışdım. Onu da Qalibə verdim. Görüşüb ayrıldıq. Çünki artıq gec idi, mənim evə getməyim, Qalibin isə dincəlməyi lazım idi.

Bu bizim son görüşümüz oldu. Anamın yas mərasimi olduğu üçün evimə gəlib-gedən çox oldu, məhz buna görə gedib Qalibə baş çəkə bilmirdim. Beş gün sonra axşam saatlarında Vasif mənə zəng vurdu. Səsində titrəyiş var idi. Kövrəlmişdi. O demədən mən nə olduğunu anladım. Qalib artıq həyatda yox idi.

Sumqayıt şəhər məzarlığında dəfn etdik Qalibi. Anam da həmin məzarlıqda dəfn olunub, təxminən 150 metr aralıda. O zamandan bəri o yolu gedərkən həmin məzarlığa mütləq dönürəm və mənim üçün çox dəyərli olan bu iki məzarı ziyarət etmədən keçmirəm.

## Vətənpərvər komandir

*Vasif Yaqub oğlu RZAYEV*
*Ehtiyatda olan baş leytenant*



Qısa tanışlıq: Vasif Rzayev 29 iyul 1978-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Böyükdüz kəndində anadan olub. 1993-cü ildə Cəmşid Naxçıxanski adına hərbi liseyə daxil olub, orada 6-cı tabor, 67-ci taqımda təhsilini başa vurub, 1996-cı ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə qəbul olub, 2000-ci ildə motoatıcı ixtisası üzrə bitirib, leytenant rütbəsi alıb.

İlk xidməti fəaliyyətə 2000-2001-ci idə 161 saylı hərbi hissədə taqım komandiri vəzifəsində çalışmaqla başlayıb, 2001-2002-ci illərdə motoatıcı taborda kəşfiyyat taqım komandiri, 2002-2003-cü illərdə 181 saylı hərbi hissənin kəşfiyyat bölüyündə taqım komandiri, 181 saylı hərbi hissədə olarkən, döyüş tapşırığını yerinə yetirərkən xəstələnib və Bakıdakı hospitalların birinə göndərilib. Hospitalda müalicə olunduqdan sonra xəstəliklə əlaqədar olaraq 09.04.2003-cü ildə xidmətdən ehtiyata buraxılıb.

1996-cı ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə qəbul oldum. Həmin vaxt tələbələr hər biri mülki geyimdə idi. O zaman hərbi liseydən gələnlərdən





başqa, heç kim bir-birini tanımırdı. Buna baxmayaraq hər kəs bir-birinə kömək etməyə çalışırdı. Nəhayət ki, bizi hərbi forma ilə təmin etdikdən sonra "ZİL" markalı maşınlara mindirərək Üçtəpə deyilən təlim mərkəzinə apardılar. Biz ora çatdıqda artıq qaranlıq düşmüşdü. İyul ayı olmağına baxmayaraq elə bir külək var idi ki, tozdan göz açmaq olmurdu. Bizləri sıralara düzərək taqımlara və manqalara böldülər. Həmin vaxt mənim qarşımda duran və adını sabah biləcəyim kursant Hümbətov Qalib Cavanşir oğlu idi.

Həmin gecə heç kim-heç kimi tanımadığı halda biz kursantları bizə ayrılmış çadırlara apardılar. Yorğun olduğumuz üçün kimi hara göstərmişdilərsə orada da yatdıq. Səhər açıldıqda isə yan-yana yatdığım şəxsin adını soruşduqda Qalib olduğunu dedi. Vaxt keçdikcə bir-birimizi daha yaxından tanımağa başladıq. Biz Üçtəpədə olduğumuz müddətdə çalışırdıq ki, harda olsaq da hara getsək də birlikdə olaq. Qaliblə aramızda olan münasibət artıq dostluq münasibətinə çevrilmişdi. Onda olan üstün xüsusiyyətləri dürüst, səmimi, vətənpərvər olmağı, dostlarına qarşı fədakarlığı mənim xasiyyətimlə eyniləşirdi. Üçtəpədə təlimlər çox çətin idi. Demək olar ki, yarıdan çox kursant, təlimlərin ağır olduğundan məktəbdə oxumaqdan imtina etdilər. Artıq 40 gün tamam olmuşdur: -Bizi artıq məktəbə yeni dərs ilinə başlamaq üçün Həzi Aslanov adına hərbi məktəbə gətirdilər. Qalib dərslərində həvəslə çalışır, münasibətində kursant yoldaşları arasında özünəməxsus hörmət qazanmışdır.

Qalib demək olar ki, bütün dərsləri mükəmməl oxuyurdu. Əsasən, taktika, topoqrafiyanı, atəş ha-

zırlığını çox yaxşı oxuyurdu. Oxuduğumuz 4 il ərzində mən Qalibdən bir dost kimi çox razı olmuşam. O, taqımda, bölükdə, taborda çox yaxşı hörmət qazanmışdır. Artıq o həddə çatmışdır ki, "Qalib mənim dostumdur" sözünü deməkdən çox şərəf duyurdum. Qaliblə o qədər yaxın olmuşduq ki, nəhayət biz məktəbi bitirdikdə qohum olduq. Elə bir qohum ki, heç vaxt ayrılmayan yeznə-qayın.

Nəhayət, biz imtahanları müvəffəqiyyətlə bitirdik, leytenant rütbəsi və zirehli texnikalar üzrə mühəndis diplomunu da aldıq. Hərbi hissələrə bölünmək üçün Qaliblə birgə püşk çəkmək üçün kluba getdik. O qədər rayonların və hərbi hissələrin adı yazılan qutudan eyni rayonun və hərbi hissənin nömrəsi ikimizdə çıxdı.

Qalib: -Hansı rayona düşmüsən.

Mən: - Ağcabədi, 161.

Qalib: -Məndə də, 161-dir.

Eynidir deyib sevindik. Qaliblə sevincimiz məhz döyüş bölgəsindən başlamaq idi. Biz bir aylıq məzuniyyətdən sonra görüşüb birlikdə həvəslə və ruh yüksəkliyi ilə hərbi hissəyə getmək üçün avtovağzala gəldik. Bir taksiyə əyləşib Ağcabədiyə gəldik. Biz Ağcabədiyə çatanda gözlərimizə inanmadıq. Düzəngah bir yer idi. Buna baxmayaraq xidmətə başlamaq üçün zabit heyətində yenidən bölgü aparıldı. Qaliblə mən yenə bir tabora və ayrı bölüklərə düşdük. Həmişə olduğu kimi onun vətənpərvərlik və fədakarlıq hissləri getdikcə daha da artırdı. Artıq Qalibin vətənpərvərlik hissi əsgərlərə də öz təsirini göstərmişdir. Qalib əsgərlərin ürəyini fəth etmişdir. Qalibin taqımında olan əsgərlərə baxanda, sanki, Qalibi görürdüm. Qalibi mən çətin vaxtlarında tanıyıb dostluq etmişəm. Atalardan bir məsəl var. Deyir birini tanımaq üçün onunla yol get!





Mən Qaliblə altı il yol getmişəm, elə bir yol ki:

-O yolda ac, susuz, yuxusuz, yorğun getmişik. Amma heç vaxt ümidsiz və narazı olmamışıq. Qalib həmişə deyərdi: -Məni səndən, səni isə məndən başqa qəlbdən tanıyan yoxdu.

Sonda demək istərəm ki, Qalib həqiqətən, həqiqi dost, gözəl insan, vətənpərvər komandir, hər kəsin arzuladığı, həsrətində olan qardaş və vətən üçün əsl QƏHRƏMAN idi.



*Aprel döyüşlərində işğaldan azad olunmuş Lələ təpə yüksəkliyi*

# IV FƏSİL

# Xidmət illəri

## Azərbaycanın vətənpərvər zabiti

*Aslan Bəhman oğlu ASLANOV*
*Ehtiyatda olan polkovnik-leytenant*



Qısa arayış: Aslan Aslanov 08 yanvar 1965-ci ildə Yevlax şəhərində anadan olub. N.Nərimanov adına 15 N-li Yevlax şəhər orta məktəbini başa vurub. 1983-1987-ci illərdə Bakı Ali Hərbi Məktəbini bitirib. 1987-2013-cü illərdə sovet ordu sıralarında Almaniya Demokratik Respublikasında həqiqi hərbi xidmət borcunu leytenant rütbəsində yerinə yetirib. 14 il döyüş bölgəsində şərəfli xidmət yolu keçib. Kapitan rütbəsindən polkovnik-leytenant rütbəsinədək, hərbi hissə komandirinin müavini, tabor komandiri vəzifəsinədək yüksəlib. Bakı Təlim-Tədris Məktəbində çalışıb.

Ailəlidir, 2 övladı var.

İlk öncə deyim ki, Qalib Hümbətov haqqında kitabın yazılması fikrini cəbhə dostlarımızdan Asiman Abdullayev bildirəndə onun telefondakı həm sevinc, həm də kövrək səsini duydum. Ona görə sevinirdi ki, Qalib adlı qəhrəmanın qəlblərdə əməli və fəaliyyəti ilə heykəlini qurub, kövrəlirdi ki, gələcəyin ləyaqətli, bacarıqlı generalı çox tez sıralarımızdan ayrıldı. Asiman Abdullayevlə zəngləşib Gəncə şəhərində görüşəcəyimizi bildirdik. Amma vaxtın təyin olunmasını şərti bir neçə gündən sonra bildirsəkdə dəqiq vaxt müəyyən etmədik.





Gəncəyə yetişdim, qəfləti Asiman Abdullayevə zəng etdim. Salamlaşıb, görüş yeri müəyyən etdik. Çox sürətlə Gəncədə yaşayan hərbçi dostların bir yerə yığışmasını həyata keçirən Asiman Abdullayev, - Hansı günü gələcəyinizi gözləyirdim. Dedim ki, - mən bunu özüm belə etdim ki, sizlərə əziyyət olmasın. Amma bir daha təsdiq etdim ki, Qalib adlı dostunuzun xətrini dünyalar qədər istəyirsiniz. Məhz bu səbəbdən də onun adı çəkilən kimi tez bir yerə cəmləşdiniz. Bu onun ruhuna olan sonsuz məhəbbətinizin bariz nümunəsidir desək yanılmarıq.

Az bir müddət ərzində Qalibsevərlər bir yerə yığışaraq görüşdük və Asiman qardaş taksi sürücüsünə, - dostum Yeni Gəncədəki böyük çay evinə gedəcəyik. Deyilən məkana qədər yol boyu söhbətdə Qalibin ruhuna dualar oxuyan dostlar bu fikrin, ideyanın hər kim tərəfindən irəli atılmışdırsa lap ürəyimizdəndir. Dedim ki, - kitabın ideya müəllifi, maddi və mənəvi dəstəyi bibisi Dilşad xanım Abbasəliqızıdır. Dostlar bir ağızdan Dilşad xanımı alqışladılar və təşəkkürümüzü Dilşad xanıma çatdırarsınız dedilər. Bilirsiniz, Qalib elə qəhrəmanlardandır ki, o, əbədiyaşardır. Yeni Gəncədəki çay evinə yetişdik, orada söhbətə başlamışdıq ki, dostlardan daha 3 nəfəri gəldi. İlk söz hörmətlə Aslan Aslanova verildi.

Aslan Aslanov: - Qalib Hümbətov haqda danışmaq və kitabın yazılması şərəfli bir işdir. Rəhmətlik buna layiqdir. Onunla dostluğum 2001-ci ildən başlayıb.

Həmin vaxt Qalib Hümbətov Bakı Ali Hərbi Məktəbi bitirib 161 saylı hərbi hissəyə leytenant rütbəsində taqım komandiri vəzifəsində xidmətə göndərilmişdi. İlk tanışlıqdan əsl zabit olduğunu, səliqəli hərbi geyimindən, məğrur görkəmində, əsl türkçülük nişanələrini isə qürurlu davranışından hiss etdim. Xaraktercə hərbi nizam-intizam qaydalarına olan münasibəti hamımızı, şəxsi heyəti ruhlandırırdı. Bu onun yüksək bilikli olmasından və vətənpərvərliyindən irəli gəlirdi. Sözlə demək çətindir, hər an şəhidlik zirvəsinə yüksələcəyi anlarla yaşayırdı. Dəfələrlə kəşfiyyata getməsi, mühüm tapşırıqları yerinə yetirməsi sanki şəxsi heyətdə böyük ruh yüksəkliyi yaradırdı.

O, ön xəttdə dinləmə, pusqu qurma və müşahidə etmə kimi vacib metodologiyanı dərindən bilirdi. Daha çox cəhd edirdi ki, düşmənin arxasına keçib sarsıdıcı zərbələr vursun. Bilirsiniz, ön xətdə xidmət etmək insanı daxilən silkələyir və həmin şəxs - vətənin, millətin və dövlətin qorunması və yaşadılması uğrunda ayaqdayam deyir. Qalib Hümbətov mübarizlik məktəbi idi. Qorxubilməz, cəsur dostumuzun fikri-zikri döyüş postunda keşik çəkən əsgərlərə tövsiyyəsi və tapşırığı xüsusi əhəmiyyətli idi. Onun görkəmində bir sehr var idi. Əsgərlər də bu sehrin aurasında hər dəfə Qalib Hümbətovun hücum işarəsini gözləyirdilər ki, düşmən üzərinə yerisinlər. Bunları deməkdə məqsədim odur ki, Qalib Hümbətov şəxsiyyətinin möcüzəsi onun hərb sənəti üçün ölçülüb-biçilmiş görkəmi, intizamı, davranışı, bilgili və qabiliyyətli olmasında idi. Bu onun Tanrıdan verilmiş haqq payı, bəxti, taleyi idi.





O, şəxsi heyətə aşılayırdı ki, ön cəbhədə hər an, bir göz qırpımı belə həyat üçün nə qədər vacib və əhəmiyyətlidir. Bunun üçün hər birimiz döyüş postunda verilmiş tapşırığa uyğun hərəkət etməli və düşməni dəqiq müşahidə etməliyik. Vətənə məhəbbət, düşmənə nifrət hisslərini elə təbliğ edirdi ki, hər bir əsgər şəhidlik zirvəsinə yüksəlmək üçün xidmət edirdilər. Qalib Hümbətovun komandirlik cəsarəti ondan ibarət idi ki, o, əsgərləri vətən səni səsləyir, vətən sənə güvənir ideyası ilə daim ayaqda saxlamağı bacarırdı.

Düşmən postunun arxasına keçən Qalib Hümbətov hər addımı məharətlə ataraq 3 erməni yaraqlısını tərksilah edərək avtomatarını da götürüb təkbaşına geri dönmüşdür. Sanki Qalibin zəhmi və cəsarəti erməniləri elə sarsıtmışdır ki, dığaların dinib-danışmağa qorxudan taqətləri yox idi.

Qalib: - Bu şərəfsizləri, bağışlamaq günahdır, ona görə ki, bu alçaqlar Allahın lənətlənmişləridir. Başlarını aşağı sallayıb Qalibə arabir yazıq-yazıq yalvarışdolu baxan dığalar qorxudan saralmışdılar. İmdad diləyirdilər ki, onları o dünyalıq etməsin. Komandanlıq Qalib Hümbətovun göstərdiyi qəhrəmanlığı qiymətləndirərək daim onu təşəkkürnamə, fəxri fərman və medallarla təltif etmişdir.

Qalib Hümbətov şəxsi heyət arasında qayda-qanunların, nizamnamənin, təlim-tərbiyənin simvolu idi. O, əsgərlərə döyüş hazırlığı, xüsusilə müşahidə, hücum etmək və müdafiə olunmaq taktikasını öyrətdikcə qürur hissi keçirirdi. Daha çox əsgərlərə qarşı tələbkar idi, deyərdi ki, -onlar sabahın generallarıdır, oxumalı,

öz üzərlərində çalışmalıdırlar ki, həqiqətən əsl general kimi yetişsinlər. Həm də Qalib əsgərlərə qarşı valideyn sevgisi və qayğısı ilə münasibət bəsləyərək onların dərin hörmət və ehtiramını qazanmışdır. Əbədi qazanılan bu hörmət-izzəti bu gün Qalibsevərlər ruhən yaşadaraq şərəf duyurlar. Bir sözlə o, əsl Azərbaycan zabiti idi.





## Şərəfli insan, sədaqətli dost

*Asiman Alman oğlu ABDULLAYEV*
*Ehtiyatda olan mayor*



Qısa tanışlıq: Asiman Abdullayev 24 iyun 1975-ci ildə Füzuli rayonunun Qoçəhmədli kəndində anadan olub. Bakı şəhər 263 N-li orta məktəbin 7-ci sinfini, C.Naxçıvanski adına hərbi liseyi və Bakı Ümumqoşun Ali Komandirlər Məktəbini bitirib. Sonra 3 ay Türkiyədə hərb təhsilini davam etdirib.

1995-ci ilin iyun ayından 2016-cı ilin dekabr ayınadək nümunəvi hərbi xidmət yolu keçərək mayor rütbəsində taborun qərargah rəisi vəzifəsinədək yüksəlib.

Asiman müəllimlə ilk tanışlığımızın səbəbkarı yaxın dostlardan Vasif Rzayev adlı şəxs olmuşdur. Asiman müəllimlə telefon bağlantısı yaradıb onunla görüşüb Qalib Hümbətovla bağlı xatirələrini yazacağımızı bildirdik. Təəssüf hissi keçirdi, nə etməli dəyərli dostumuzu çox erkən itirdik. Amma qəlbimizin dərin guşəsində yuva quran dostumuz haqda bildiklərimizi söyləmək biz dostlar üçün şərəflidir. Gəncə şəhərinə yetişib Asiman Abdullayevlə zəngləşib görüşəcəyimiz yeri müəyyən etdik.

Asiman: - Salam, sizi xoş gördük bəs nə üçün bir gün əvvəl zəng edib demədin ki, hamını çağırardım.

Müəllif: - Sizlərə əziyyət vermək istəmədim, bilir-

dim ki, Qalibsevərlər onsuz da zəng olunsa tez gələcəklər. Həqiqətən Asiman müəllim hansı dosta zəng etdisə hamısı deyilən məkana gəldilər. Bəli, sağlığındaykən onu tanıyanların qəlbində heykəlini quran Qalib Hümbətov haqda söz deyən dostlar – Qalib hər zaman qəlbimizdədir, -söylədilər. O, elə ömür yaşadı ki, gələcək nəsillərə örnək, qürur mənbəyi oldu. Asiman: -Qalib Hümbətovla ilk tanışlığım 2000-ci ildə Ağcabədi rayonunda Haramı düzü deyilən yerdə yerləşən 161 saylı hərbi hissədən başlayıb. Rəhmətlik yaddaşıma belə həkk olunub, - Vətənimiz Azərbaycanın müstəqilliyi, suverenliyi və bayrağının əbədi dalğalanması naminə canından keçərək şəhidlik zirvəsinə yüksəlməkdən böyük ad tanımayan əsl türk oğlu, əsl türk zabiti idi. Başdan-ayağa hərb üçün doğulmuş, boy-buxunu hərb üçün ölçülüb-biçilmişdir. Elə geyinib-kecinər, elə davranardı ki, sanki, saatlarca baxmaqdan və dinləməkdən doymurduq. Əsgərə qarşı çox səmimi və mehriban idi, daim deyərdi, - sizlər il yarım vətən üçün xidmət edirsiniz, burada isə valideynləriniz bizlərik. O, böyük coşqu ilə dərsləri əsgərlərə mənimsədərdi. Xüsusi ilə hərbi nizamnaməni, xəritə üzərində məntəqələrin təyini, hücum və müdafiə planlarının tərtibi işlərini daha dəqiq bilirdi.

Gündəlik xidməti həyatımız ön xəttdə kökləndiyindən hər an düşmənlə üz-üzə qalmaq və həyatın bir tətikdən açılan atəşlə bitəcəyi ömürdən ibarət idi. Şərəf və qürur dolu bu ömrü yaşamağın sirli bir dünyası var. Döyüşdə sağ qalmağın ən əsas vacib şərtlərindən biri də düşmən məntəqəsini təyin etmək,





müşahidə edərək onu nəzarətdə saxlamaq kimi vacib şərtləri yerinə yetirməkdir. Qalibin sanki gözlərində yuxu ərşə çəkilmişdi. Gecə-gündüz ayıq-sayıqlığı ilə şəxsi heyəti elə ayaqda saxlayırdı ki, əsgərlər düşmən tərəfə hücum üçün can atırdılar. Bir gün ön xətdə idim. Demək olar ki, düşmənlə lap yaxın bir mövqedə qarşı-qarşıya idik.

Qalib: - Gedək düşməni müşahidə edək.

Mən: - Getdik.

Müşahidə edirdik ki, düşmən tərəfdən də snayperlərlə bizi müşahidə edirlər. Cəld mövqe seçdik.

Qalib: - Sağdakı mənim, sol tərəfdəki sənin.

Mən: - Oldu, mən hazıram.

Söhbətləşib, təpənin arxasına keçdik, qarşı tərəfi çaşdırdıq. Metr yarım ara məsafəmiz var idi. Mən dedim ki, bir, iki, üç deyən kimi atəş açaq. Qalib soldakı, mən də sağdakı düşmənə tərəf atəş açdıq.

Qalib: - Mən vurdum, sol tərəfə yıxıldı.

Mən: - Mənim də vurduğum sağa tərəf düşdü.

Atışma başladı, 6-7 dəqiqə davam etdi. Düşmən tərəf tamamilə susduruldu. Və bir müddət pusqu qurub gözlədik.

Qalib: - Dərəyə enək, yerimizə qayıdaq, döyüş postlarında müşahidəni gücləndirək. Düşmən layiqli cavabını alıb. Namərdlər heyif almağa fürsət axtaracaqlar. Biz elə diqqətli olmalıyıq ki, bir dəfə atəş açsalar beş qat cavablarını alsınlar. Bəli, düz ay yarım düşmən tərəfdən atəş səsi eşidilmədi.

Qalib: - Asiman, səngərlərimizi möhkəmlətmişik, düşmənə sözümüzü demək vaxtıdır.

Asiman: - Və beləcə, günlər ötür, məqam düşdükcə

düşməni yuvasında o dünyalıq edirdik. Hər dəfə düşmən vurulduqca rəhmətlik deyərdi: - Vurulan dığanın hər biri, bir şəhidimizin əvəzidir.

Sanki Qalibin döyünən ürəyinin çırpıntısı səngimirdi. Qarabağ dərdi onu rahat buraxmırdı. O, döyüş əmri gözləyirdi. Bir arzusu var idi torpaqlarımızı azad görmək. Hər an əli tətikdə olan və gözlərindən intiqam yağan Qalib dostum deyərdi, - torpaqlarımızda nə üçün düşmən gəzməlidir.

Bəli, Qalib xarakterce işinin, sənətinin peşəkarı olduğuna, səmimiyyətinə və alicənablığına görə daim seçilərdi. Xüsusilə, qərargah mədəniyyəti yüksək idi. Şəxsi keyfiyyətləri ilə yanaşı, əsgərlərə qarşı diqqətli və tələbkar idi. O, xəritə, manqa, taqım, bölük dayaq məntəqəsinin sxemini çəkməyi və tərtib etməyi bacarırdı.

Vətənpərvərliyi ilə vətən harayı çəkən, hünərpərvərliyi ilə hünər göstərən Qaliblər Qalibi özündən sonra elə bir məktəb yaratdı ki, onun adı çəkiləndə əzəmət, dəyanət və mərdlik yada düşür. Qalib Hümbətov haqda daha nələri, fərdi fəxri xüsusiyyətləri sadalaya bilərik, amma ehtiyac yoxdur, ona görə ki, o, Azərbaycan ordusunun zabit heyəti arasında tanınmış fəxri zabitlərindəndir.Beləliklə, mən özümü xoşbəxt sanıram və qürur hissi keçirirəm ki, Qalib Hümbətov adlı cəsur zabitlə bir səngərdə silahdaş və dost olmuşam.





## Fəxri zabit, fədakar qəhrəman

*Mayor Elçin Əlövsət oğlu TAĞIYEV*



Qısa tanışlıq: Elçin Tağıyev 27 may 1974-cü ildə Bakı şəhərində anadan olub. Əslən Cəlilabad rayonundandır. Bakı şəhərində Nəsimi rayonu 8 N-li orta məktəbin rus bölməsini başa vurub. 1993-cü ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə daxil olub, 1997-ci ildə həmin məktəbi quru qoşunları üzrə müvəffəqiyyətlə bitirib. 181 saylı hərbi hissədə leytenant rütbəsində taqım komandiri vəzifəsində çalışmaqla ilk xidməti fəaliyyətə başlayıb. 161 saylı hərbi hissədə baş leytenant rütbəsində bölük komandiri, 2001-2014-cü illərdə Bakı Təlim və Tədris Mərkəzində zabit ixtisas taborunda bölük komandiri, 2014-2016-cı illərdə 171 saylı hərbi hissədə döyüş hazırlığı bölmə rəisinin köməkçisi vəzifələrində çalışıb. 2016-cı ildən hal-hazıradək N saylı hərbi hissədə mayor rütbəsində döyüş hazırlığı bölmə rəisinin köməkçisi vəzifəsində xidmətini davam etdirir.

Ailəlidir, Fifail və Kamran adlı oğul övladları var. Hər iki övlad idmanla məşğuldur.

Qalibsevərlərdən biri də Elçin Tağıyevdir. Onunla həmsöhbət olduqda Qalibli günləri xatırlamaq, o illərə dönmək onun üçün nə qədər ağır olduğunu titrək səsindən hiss etdim. Bilirsiniz, həyatda ən yaxın dostu

tapmaq çətin, onu itirmək isə dözülməzdir. O, sirdaşımız, arxadaşımız, bir sözlə güvənc yerimiz idi. Qalib bu adı, şərəfi öz şəxsi keyfiyyətləri ilə qazanmışdı. Onunla ilk tanışlığımız 2000-ci ilin avqust ayında 161 saylı hərbi hissədən başlamış, 2001-ci ilin fevral ayınadək davam etmişdir. Həmin vaxt Qalib Hümbətov leytenant rütbəsində taqım komandiri, mən isə baş leytenant rütbəsində bölük komandiri vəzifəsini icra edirdim.

Əsgərə qarşı tələbkarlığı, ilk öncə vətən sevgisini aşılamaq, düşmənə qarşı amansız olmaq, -ideoloji təbliğatının əsas qayəsi əsgərin sağlam və savadlı olmasından asılıdır,-deyərdi. Bəli, zabit şərəfini uca tutmaq onun həyatının mənası idi. Qollarımızı çirmələyib əsgər yataqxanasını tikməyə başladıq. Şəxsi heyətdəki canlanmanı görcək sevincinin həddi-hüdudu yox idi. Əsgərlə nəfəs alırdı, -deyərdi ki, onların valideynləri bizlərə görə arxayındır ki, övladlarımızın qayğısını çəkən zabitlərimiz var. Bu kimi fikirlərin qanadlarında ömür sürməyi özünə həyat devizi seçən Qalib Hümbətov vətənpərvərliyini əməlləri ilə təsdiq edirdi.

Onu ilk gündən, savadlı, enerjili, sözübütöv, mərd bir insan kimi tanıdım. Get-gedə istiləşən münasibətimiz ən sədaqətli, səxavtətli və etibarlı dostluq notları üzərində qurulmağa başladı. Həqiqətən Qalib Hümbətov gələcək həyatımda dönüş nöqtəsi oldu. Onun sözü və əməli bir tamlıq təşkl edirdi. O,özünü dost yolunda ölümə atan qəhrəman idi. Get-gedə müşahidə etdim ki, əsl dost necə olmalıdır sualının cavabını onun dünyasında aşkarladım ki, - bax əsl dost





belə olar. Çox duyğusal insan idi, hətta maddi çətinliyi olan zabit yoldaşlara daim köməkdarlıq edər, əl tutardı.

Daxilən qranit təbiətli idi. O, dönməzliyi, qayğıkeşliyi və alicənablılığı ilə hörmət, ehtiram qazanmışdı. Vaxtın və zamanın qədrini bilirdi. Daim öz üzərində vaxtında çalışmağı ilə yüksəlmişdi. Və bu metod və üsulu ilə keçdiyi dərsləri əsgərlərdən tələb edərdi. Əsgərlərə qarşı komandirlik tələbkarlığı ilə onları gələcək həyatlarında mübariz olmağa öyrədirdi. Bəli, zabit andına sadiqliyi, insanlığa yüksək dəyər verməyi ilə onu tanıyanların qəlbində yuva qurmuşdur.

Təmtaraqdan uzaq idi, cah-cəlala üstünlük verməz, bir sözlə sadə ömür sürməyi sevirdi. Dünya malında gözü olmayan Qalib Hümbətov hər kəsi vətən üçün çalışmağa səsləyirdi. O, xoşbəxt insan idi və bu xoşbəxtliyi çoxlu dostlar qazanmağımda tapmışam, -deyərdi.

Elçin Tağıyev: -Qalib ilk dəfə xidməti vəzifəyə başlayanda mən onun bölük komandiri olmuşam və sonralar o, vəzifəcə və rütbəcə böyüdü, qərargah rəisi vəzifəsinədək yüksəldi. Onunla telefon əlaqəsi saxlayanda, görüşəndə yenə də, -mənə komandir deyə müraciət edərdi. Deyərdim ki, -artıq siz böyük vəzifəlisiniz.

Qalib: -Bu heç nəyi dəyişmir, siz mənim ilk komandirim olmusunuz, bu gün də komandirimsiniz.

Bəli, Qalibin böyüklüyü onun sadəliyində və səmimiyyətində idi. O, hər zaman qəlblərdə Azərbaycanın fəxri zabiti, fədakar qəhrəmanı kimi yaşayacaq.

## O, həmişə şərəflə anılacaq

*Ehtiyatda olan leytenant*
*Rauf Məsim oğlu NƏBİYEV*

Qısa arayış: Rauf Nəbiyev 1978-ci ildə Goranboy rayonunun Goranlı kəndində anadan olub. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu (indiki Azərdaycan Dövlət Aqrar Universiteti) "Aqrokimya yer quruluşu – torpaq müfəttişliyi" ixtisası üzrə bitirib.

Unudulmaz şanlı illər, 2000-2003-cü illərdə 161 saylı hərbi hissədə keçdiyim həqiqi hərbi xidmət dövrü. Ona görə unudulmazdır ki, ləyaqətli komandirlərim olmuş və zabit dostlarımla birgə vətən borcunu şərəflə yerinə yetirmişəm. Hərbi hissənin 3-cü taborunda xidmət etmişəm. 2-ci taqım komandirim Qalib Hümbətov idi. Onunla ilk tanışlığım 2000-ci ildə Ergi deyilən yerdə təlim mərkəzində olmuşdur. Qalib Hümbətov adlı zabit insanlığı, zabit alicənablığı və vətənpərvərliyi ilə bizlərə yol göstərirdi. O, sonra 13-cü bölük komandiri təyin olundu. Onun hərb üçün canfəşanlığı, milli ordumuz üçün canından keçməyi hər bir zabit və əsgərin xidməti yollarında unudalmaz iz buraxdı. Dərslərin yüksək səviyyədə keçirilməsi, plan-konspektlərin, təhlükəsizlik qaydalarının və fərdi söhbətlərin aparılması işlərini mütəmadi həyata keçirərdi.

Təlimlərdə birgə iştirak edər və fəallığı ilə şəxsi heyəti daha da ruhlandırardı. Ciddiliyi və tələbkarlığı





ilə yanaşı əsl dost, qayğıkeş komandir idi. İnsan bu dünyaya ona görə gəlib ki, xidmət etsin, əlindən gələn yaxşılıqları ilə kiminsə köməyinə çatsın, - deyən Qalib Hümbətov şəxsi heyətin dərin hörmətini və məhəbbətini qazanmışdır. Ona görə onun adı nə zaman çəkiləcək o, həmişə şərəflə anılacaq.

## Əbədi ölməzlik qazanan zabit

*Ehtiyatda olan leytenant*
*Anar Zeynalabdin oğlu ƏLİYEV*



Qısa tanışlıq: Anar Əliyev 03 may 1979-cu ildə Gəncə şəhərində anadan olub. BDU-nin "Tarix" fakültəsini bitirib.

Elə insanlar var ki, onlar cismən aramızda olmasa da, ruhən əbədi ölməzlik qazanırlar. Həmin əbədi ölməzlik qazananlardan biri də haqqında danışacağımız Qalib Hümbətov adlı azman türk ərənidir. O, öz biliyi, bacarığı ilə şəxsi heyəti daim təlimatlandırar, onları düşmənə qarşı mübarizəyə səsləyərdi. 2001-2002-ci illərdə 161 saylı hərbi hissədə xidmət etdiyim illər həyatımın ən mənalı, möhtəşəm illəri hesab edirəm.

Qalib Hümbətov Tanrıdan əsl hərbçi doğulmuşdu. Simasından, geyimindən və hərəkətlərindən zabit alicənablığı əsgərləri farağat komandası ilə salamlayırdı. Onun bir hərəkəti, baxışı bizim üçün əziz idi. Şəxsi heyət arasında bir mayak rolunu oynayırdı. O, daim öndə gedər, qazandığı ən böyük isə onun əmrlərinə diqqətlə qulaq asıb yerinə yetirərdik. O, əsgərləri arxasınca aparmağı bacarırdı, hətta əsgərlər gözləyirdilər ki, Qalib Hümbətov əmr versin və özlərini ölümə atsınlar. Ehtiyatda olan zabit və əsgərlərə diqqətlə yanaşardı. O, şəxsi heyətə bir ailə münasibəti





bəsləyərdi. Daim deyərdi: -Bütün əsgərlər qardaşımdır. Onların qayğısına qalmaq, öyrətmək və tələb etmək isə vəzifə borcumuzdur.

Öyrənmək və öyrətmək həyat amalı idi. Dərsləri hərtərəfli izah edər və praktik cəhətdən döyüş postlarında müşahidə etdikcə daha da dərindən əxz edərdilər. Qalib Hümbətov yüksək əl qabiliyyətinə malik idi. Onun çəkdikləri plan şəkillər sanki döyüş meydanını əks etdirirdi. Plan şəkildə döyüş texnikalarının harada olması, quru qoşunlarının düzülüşü və komanda məntəqələrinin quruluşu, müdafiə və hücum planları insanı valeh edirdi. Əsgərlərin vaxtlı-vaxtında idman hazırlığı, dərslərin davamiyyəti, sağlamlığı və qidalanması ilə bağlı tədbirlərin nəzarətdə saxlanmasın işini daim həyata keçirməklə üzərinə düşən zabit borcunu ləyaqətlə yerinə yetirməkdən qürur hissi keçirirdi.

## Gələcəyin generalı

*Gizir Telman Vəli oğlu VƏLİYEV*



Qısa tanışlıq: Telman Vəliyev Qusar rayonunun Ənix kəndində anadan olub. Hazırda N saylı hərbi hissədə gizir rütbəsində avtomobil anbar rəisi vəzifəsində çalışır.

Bakı-Qazax avtobusu ilə üzü qərb bölgəmizə tərəf irəliləyirdim. Qonşu oturacaqda simasından 40-45 yaşlı fiziki görkəmcə gümrah bir nəfər əyləşmişdi. Onunla həmsöhbət olduqda məlum oldu ki, həmin şəxs Tovuz rayonunda yerləşən N saylı hərbi hissədə gizir rütbəsində xidməti vəzifə borcunu yerinə yetirir. Ləhcəsindən ləzgi danışığı insana xoş təsir bağışlayırdı. Söhbətin şirin yerində siz Qalib Hümbətovu tanıyırdınız, - sanki ləzgi qardaşın çöhrəsindəki yolçuluqdan doğan yorğunluq aradan götürüldü. Özünü toparlayıb – bəli, o elə bir insan idi ki, nə bilim, sözlə demək çətindir. Qalib Hümbətov xalqını, vətənini canından çox istəyirdi, çalışırdı ki, torpaqlarımızı işğaldan azad etmək üçün özünü oda-alova atsın.

Məlum oldu ki, ləzgi qardaşın adı Telman, soyadı Vəliyevdir. Telman Vəliyev: - Qaliblə ilk tanışlığımız 2012-ci ildə Gəncədəki 777 saylı hərbi hissədə xidmət etdiyimiz dövrdən başlayıb. Qalib Hümbətov həmin dövrdə mayor rütbəsində tabor komandiri vəzifəsində çalışırdı. Mən isə avtorotanın komandiri idim. İlk tanışlıqdan bu günə qədər unuda bilmədiyim xarakter xüsusiyyəti əsasən səmimiyyəti, insanlığı, bacarıqlı zabit və insana qarşı isti münasibəti idi. O, daim şəxsi heyət arasında ruh yüksəkliyi, nizam-intizam yaratmaq üçün var-qüvvəsi ilə çalışardı. Onun xidməti fəaliyyəti özlüyündə bir vəhdət təşkil edirdi.





2011-ci ilin oktyabr ayından 2013-cü ilin yay aylarınadək bir yerdə xidmət etmişik. Get-gedə komandanlıq tərəfindən xüsusi hörmət qazanan Qalib Hümbətov 2013-cü ilin yayında ali təhsilini artırmaq üçün Hərbi Akademiyaya göndərildi. O, həqiqətən gələcəyin generalı olacaqdı. Həqiqətən o, buna layiq idi. Öz üzərində çalışmaqdan zövq alırdı və yoruldum deməzdi. Dəmir iradəsi, dözümü ilə hərbin çətinliklərinə sinə gərən Qalib Hümbətov 2016-cı ilin may ayında polkovnik-leytenant rütbəsində Tovuzdakı 812 saylı briqadanın qərargah rəisi vəzifəsinə göndərildi. Mən artıq 2015-ci ilin dekabr ayından həmin hərbi hissəyə göndərimişdim.

Briqadaya gəldiyi gündən şəxsi heyət arasında nizam-intizamın yüksəldilməsi, dərslərdə və şəxsi heyət arasında canlanma özünü göstərdi. Amma şir ürəkli, Qalibin canına hopmuş amansız xəstəlik onu lap təngə gətirmişdi. Fiziki görkəmindən zabit dəyanətini hər şeydən uca tutan cənab Hümbətov yenə də göstərişlərini verir, tapşırıqların yerinə yetirilməsini tələb edirdi. Ağrılara qarşı dözümlülük nümayiş etdirən Qalib Hümbətov vəzifə səlahiyyətlərini sonacan şərəflə icra edərək əbədi onu tanıyanların yaddaşına köçdü.

## O, əsgərlərə mübarizlik, kişilik məktəbini keçməyi öyrətdi

*Baş çavuş Akmal Ənvər oğlu ATAMOV*



Qısa tanışlıq: Akmal Atamov 25 may 1979-cu ildə Özbəkistan Respublikasının Buxara rayonunun Sverdlov yaşayış məntəqəsində anadan olub. Milliyyətcə axıska türküdür. 1990-cı ildə ailəlikcə Goranboy rayonunun Nadirkənd kəndində məskunlaşmışlar.

Hər bir azərbaycan vətəndaşı kimi şərəfli həqiqi xidmət borcunu yerinə yetirmək mənə də nəsib oldu. Hərbi xidmətə 2000-ci ildə 161 saylı hərbi hissədə başladım və 06 aprel 2002-ci ildə həmin hərbi hissədə başa vurdum. Qalib Hümbətovla ilk tanışlığım 2001-ci ildən başlamışdır. Həmin vaxt Qalib Hümbətov 13-cü taqım komandiri vəzifəsində çalışırdı. Və 2001-ci ilin iyun ayında 15-ci bölük komandiri vəzifəsinə təyin olundu. Mənə də çavuş adı verildi.

Belə bir söz var, əsgərlik kişilik məktəbidir. İnsan orada möhkəmlənir, qayda-qanunlara riayət etməyi öyrənir, bir sözlə gələcəyə hazır olursan. Bütün bunlar bir deyimdir. Bəli bunlar danılmaz bir həqiqətdir. Amma komandanlıqdan və komandirlərdən isə çox şey asılıdır. Xidmətə başladığım ilk gündən hərbi hissə komandirindən əsgərlərə qədər bütün şəxsi heyət





yalnız düşmənə qarşı amansız olacağımıza and içmişdik. Tabor komandirimiz polkovnik-leytenant Aslan Aslanov və yüksək rütbəli zabitlərdən Elçin Tağıyev, Qalib Hümbətov və digərlərinin birgə komanda şəklində şəxsi heyətə qarşı yüksək tələbkarlığı və münasibəti biz əsgərləri daha da ruhlandırırdı. Amma Qalib Hümbətovun tövsiyyəsi belə idi, – xidmət başa çatanadək evi yaddan çıxart. Bura sizin eviniz, bizlər də sizin valideynlərinizik. Yaxşı xidmət edin daha sonra oxuyub zabit də ola bilərsiniz.

Həqiqətən, Qalib Hümbətov hər bir əsgərə qarşı həm zabit, həm də valideynlik münasibəti göstərirdi. O, hətta əsgərlərin yatacağında yatar onların hər biri ilə ayrılıqda maraqlanar, bir sözlə yaxından qayğısını çəkərdi. Nizam-intizamlı olmağa və təmizliyə yüksək diqqət yetirərdi. Hər gün dərsləri keçər, tapşırıqlarını verər və vaxtlı-vaxtında nəzarət edərdi. Dərsləri çox vaxt praktik cəhətdən keçərək silahlarla davranmağı, ön xəttdə xüsusilə döyüş postlarında nizam-intizama, müşahidə etmək bacarığını aşılayardı.

Ergi deyilən bölgədə döyüş postunda birgə müşahidə aparırdıq. Bizim tərəfə erməni kəşfiyyatçısı keçmişdi. İstər-istəməz qanım coşdu tez avtomat silaha əl atıb yuxarı qaldıraraq nişan almaq istəyəndə Qalib Hümbətov icazə vermədi və dedi: - bəlkə, bizimkidir. Və beləcə həmin müşahidəni sonacan yerinə yetirib döyüş postuna dönsəkdə, fikri orada idi. Səhər açıldı, yenidən həmin yerə baxış keçirərkən orada qan tökülmüşdü, həmin kəşfiyyatçını digər bir əsgərimiz vurmuşdu. Hər atılacaq addıma və atəşə xüsusi diqqət yetirən Qalib Hümbətov əsgər həyatını daha vacib

sayar onları göz bəbəyi qoruyardı. Beləliklə, Qalib Hümbətov haqda danışdıqca özümdə ruh yüksəkliyi hiss edirəm.

Qalib Hümbətov həqiqətən əsl vətən qeyrəti çəkən zabit idi. O, əsgərlərə mübarizlik məktəbini, kişilik məktəbini keçməyi öyrətdi.





## Qəhrəmanlıq simvolu

*Baş çavuş Alixan Ənvər oğlu ATAMOV*

Qısa tanışlıq: Alixan Atamov 12 sentyabr 1982-ci ildə Özbəkistan Respublikasının Buxara rayonunun Sverdlov yaşayış məntəqəsində anadan olub. Axıska türküdür. 1990-cu ildən Goranboy rayonunun Nadirkənd kəndində məskunlaşmışlar.

Üzərimə düşən vətən borcunu 161 saylı hərbi hissədə (2000-ci ilin oktyabr ayından 2002-ci ilin aprel ayınadək) yerinə yetirmişəm. Əsgəri formasını geyəndən sonra daxili bir hiss məni daha da ruhlandırdı ki, sən həyata yeni baxışlarla baxacaq və sabaha hazır olmalısan. Bütün bu söylənilənləri əsgər yoldaşlarımla birgə xidmət etdiyimiz hərbi hissədə elə yaşadıq ki, həqiqətən gələcək həyatımızda böyük rol oynadı. Şəxsi heyət arasında xüsusi hörmət qazanan komandirlərimizdən Qalib Hümbətov haqqında danışmaq mənim üçün şərəflidir. Onun adı çəkiləndə həmişə gözlərim önündə ən məğrur azərbaycan zabiti, qorxmaz, cəsur qəhrəman obrazı canlanır. Onun əsgərlərə qarşı səmimiyyəti, davranışı və tələbkarlığı böyük əhəmiyyət kəsb edirdi. Həqiqətən dərsləri həm nəzəri, həm də praktik cəhətdən elə izah edirdi ki, hamımız vətən haqqında düşünməli, vətən uğrunda döyüşlərə hazır olmalıyıq.

Hər bir əsgərə qarşı valideyn qayğıkeşliyi ilə yanaşar, daha yaxından maraqlanardı. Heç vaxt yadımdan çıxmaz, əslən Mingəçevir şəhərindən hərbi

xidmətə çağrilmış bir əsgərin ayağından el arasında "dolama" deyilən yara çıxmışdır. Əsgər çox əziyyət çəkirdi tibbi yardım olana qədər komandirimiz Qalib Hümbətov özü "marqanis"lə yuyub təmizləyərək ilk tibbi yardım göstərdi. Sonra axıracan müalicə davam etdirildi və əsgərin ayağı tamamilə sağaldı.

Hər səhər idman dərslərinə başlayar özü də əsgərlərlə birgə iştirak edər onları ruhlandırardı. Zarafatından da qalmırdı, -sizə qızıl saat verəcəklər deyib təbəssüm dolu tapşırıqlarını verərdi.

Qalib Hümbətov: - Döyüş tapşırıqları haqqında ilkin hazırlıq elə təşkil olunmalıdır ki, düşmən tərəfinin mövqeləri ilk əvvəl dəqiq müəyyənləşməli və döyüş postlarında müşahidə ciddi aparılmalıdır,- deyərdi. Ona görə ki, dəqiq müşahidə qələbəyə daha yaxın olmaq deməkdir. Dərsləri maraqlı hadisələrlə müqayisəli şəkildə izah etdikcə daha dərindən mənimsəyirdik.

Bəli, Qalib Hümbətov adlı zabitin xidmət etdiyi hərbi hissələrdəki gənc zabitlər onun yolunu ləyaqətlə davam etdirirlər. Həmin gənc zabitlər Qalib Hümbətov irsini yaşadaraq onun ruhunu şad edirlər.





## Əsl komandir, əsl insan

*Kiçik çavuş Asif Rasim oğlu KƏRİMOV*

Qısa tanışlıq: 1983-cü ildə Göranboy rayonunun Qarasuçu kəndində anadan olub. Orta təhsillidir.

Ömrümüzün ən xoş mənalı anlarından biri də həqiqi hərbi xidmət dövrünü keçməkdir. Mən də öz növbəmdə həmin dövrü keçməklə özümü xoşbəxt sanıram. 02 yanvar 2002-ci ildən 02 iyun 2003-cü ilədək davam etmiş, yadda qalan o unudulmaz illərə dönürəm. Amma o illərdən hafizəmdə dərin iz buraxan komandirlərimizdən Qalib Hümbətovun yoxluğu məni sarsıdır. İlk əvvəl 161 saylı hərbi hissənin 5-ci taborunda 3 ay, sonra 1 il 3 ay isə ön xəttdə 14-cü və15-ci bölükdə xidmət etmişəm. 15-ci bölük komandiri Qalib Hümbətov idi. Onun komandirliyi dövründə öyrəndiyim hərbi biliklər və qayda-qanunlar sonrakı həyatımda böyük rol oynadı. Əsgərlərə yaxından can yandırar, onların hətta hər bir çətinliyi ilə maraqlanar bacardığı qədər köməkdarlıq edərdi. Hər gün sıra baxışı keçirər, əsgərlərin üst geyimi, sağlamlığı ilə xüsusi maraqlanardı. Bir dəfə əsgərlərdən biri "pnevmaniya" xəstəliyinə yoluxmuşdu, cəld göstəriş verib həkimin gəlməsini tələb etdi. Əsgərin sağalması üçün əlindən gələn köməkdarlığını yerinə yetirdi. Şəxsi heyəti sağlam, nizam-intizamlı, bacarıqlı, cəsur və vətənpərvər görmək sanki bir zabit arzusu, həyat devizi idi.



*Keşişkənd kəndi*



*Qoşabulaq kəndi*

# V FƏSİL

## Əzizlərinin yaddaşında

## Vətən qəhrəman oğullarına güvənir

*Əmisi: Arif (Vəli) HÜMBƏTOV*



Əziz oxucu, səmimi deyirəm yaxın qohumlardan, can-ciyərləri haqda müsahibə almaq o qədər də asan deyil. Onların daxilən keçirdikləri sızıltılar insanın ürəyini parçalayır. Mən də bir müəllif olaraq onların dərdinə şərik olaraq Qalib Hümbətovun ruhu qarşısında baş əyirəm və qürur duyuram.

Arif müəllimlə görüşümüz onun Sumqayıt şəhərinin yaxınlığında H.Z.Tağıyev qəsəbəsində yaşadığı evdə baş tutdu. Onu deyim ki, Arif müəllimlə görüşəndə əllərindəki gücdən hiss etdim ki, Qalib adı çəkiləndə onu tanıyanlara güc gəlir. Və daha sonra Arif müəllim ürəyindəki sonsuz Qalib sevgisini belə qeyd etdi: - İllər ötəcək, vətəni, milləti, xalqı üçün iş görənlər, qəhrəmanlıq göstərənlər yaddaşlarda qalacaq. Onlardan biri də qardaş oğlu Qalib Hümbətovdur. Hələ kiçik yaşlarından hərəkəti, danışığı, oturuşu-duruşu ilə tay-tuşlarından seçilərdi. Maraqlı idi, həmişə özündən yaşca böyük adamlarla oturub söhbət edərdi. Çox hafizəli, diqqətli idi. Orta məktəbdə yaxşı oxumağı ilə yanaşı musiqiyə xüsusi olaraq saza çox bağlıydı. Kiçik əmisi Vüqarın sazını rayondan gətirmişdi. Oxuduğu 26 N-li orta məktəbdə musiqi dərsində sazda ifa etdiyinə görə müəllimlərin də





rəğbətini qazanmışdır. Sonra sazı mənə bağışladı. Hazırda həmin saz bacım Rozanın oğlu Elvin Abbasəli oğlundadır.

O, həkim olmaq istəyirdi. Amma vətən sevgisi, onun uğrunda keşik çəkib xidmət etmək, bir sözlə hərbçi olmaq istəyi həyatına hakim kəsildi. Ümumiyyətlə, onun hərbçi olmağına ən böyük təsir edən amil onun uşaq vaxtı 1941-1945-ci illər Böyük Vətən Müharibəsi haqda çəkilən kinofilmlərə baxması olmuşdur. Digər tərəfdən sazda "Baş sarıtel", "Yanıq Kərəm" havalarını ifa etdikcə vətən, yurd sevgisi onu ağuşuna alardı.

Vətənini, millətini çox sevirdi. Bu sevgini daim əsgərlərə aşılayar və tövsiyyə edərdi ki, vətən uğrunda xidmətiniz onun yaşadılması deməkdir. Qalib deyərdi: - Elə yaşayasan ki, adın kitab, dəftərdə qalsın. O, öz növbəsində xidməti borcunu ön cəbhədə düşmənlə üzbə -üz dayanaraq yerinə yetirib adını kitablara, qəlblərə yazdırdı. Tale elə gətirdi ki, düşmən tanklarından, toplarından atılan mərmilərdən müdafiə olunan məğlubedilməz qəhrəman Qalib xəstəliklə mübarizə aparıb çarpışırdı. Xəstəlik onu yıxa bilmirdi.

Qalibin ayaqları şişmişdi. Evlərinə yanına getmişdik. Qalibə söz verdiyim dərmanı da aparmışdım. Həmin dərman "izopropil spirti"ndən (akasiya ağacının gülünə töküb 40 gün qaranlıqda saxlanılır) hazırlanmışdır. Özüm Qalibin şişmiş ayaqlarına hazırladığım dərmanı (spirti) çəkdim, xoşhal oldu. Və demək olar ki, ayağındakı şişlər bir həftəyə çəkildi.

Qalib: - Əmi, nə yaxşı dərmandı, deyib sevinirdi. Xəstəliklə mübarizə apara-apara ürəyi döstları,

qohumları və əzizlərinin yanında idi. O, hamını bir yerdə görmək istəyirdi. Yadıma oğlanları Coşqunun və Cavidin sünnət toyu düşdü. Sevincinin həddi-hüdudu yox idi. Şənliyə demək olar ki, bütün qohum-əqraba, yaxın dostlar, bir sözlə ürəyi istərdiyi insanlar gəlmişdi. Qalib deyirdi: -Mənim fikrim hamını birləşdirmək idi, şükür o da baş tutdu.

Beləliklə, Qalib Hümbətov daim belə xatırlanacaq: -Onu tanıyanların dərdinə, sevincinə şərik olan dost, həmdəm, əlindən gələn xeyirxah əməlləri ilə yadda qalan halal, pak insan. Vətənini sevən əsl vətənpərvər, onun bütövlüyü uğrunda canından keçməyə hazır olan şərəfli zabit.



*Qalib, əmisi Arif (Vəli), əmisi Nazimin oğlu Cavid*





## O, anadangəlmə qəhrəman idi

*Bibisi, teleaparıcı-jurnalist Dilşad ABBASƏLİQIZI (Lider TV-də "Gecənin sehrində" telelayihənin rəhbəri və aparıcısı)*



Dilşad Abbasəliqızı və ya Dilşad Əhmədova. Hamımız həftənin 1-ci, 2-ci, 3-cü və 4-cü günləri axşam saat 10 tamamda Lider televiziyasının "Gecənin sehrində" verilişini səbirsizliklə gözləyirik. O, məğrur baxışlı, gülərüzlü, xoşxasiyyət, simaca qıpçaq-türk xanımı olan Dilşad xanım öz maraqlı verlişində çox dəyərli qonaqları ilə xalqımızın milli-mənəvi dəyərlərinin zənginləşməsi üçün çıxış edərək sanki ruh rahatlığı təlqin edəcək. Bu mənəvi zənginlikdən yararlanmaq isə bizim vətəndaşlıq borcumuzdur.

Çox dəyərli Dilşad xanım hər bir verilişi ilə yenilik gətirərək Lider televiziyasının reytinqini öndə saxlayır. Müəllif: -Dilşad xanım, qardaşoğlu Qalib yaddaşlarda necə qaldı?

Bulud kimi dolub-boşalan, sanki ürəyi dəniz kimi çırpınan Dilşad xanım: - Qalib hamımızın elə istəklisi, canı-ciyəri idi ki, onun bir müddət üzünü görməyəndə, səsini eşitməyəndə çox darıxırdıq. O, Tanrının seçilmişlərindən idi. Bilirsiniz, onun böyük ürəyi var idi. Uşaqdan böyüyə hamının yolunu gözləyər, onlara hörmət-ehtiramla yanaşardı. Münasibətcə, səmimi, mehriban idisə hərəkətlərində çox dəqiq və ciddi idi.

Get-gedə bütün bu kimi keyfiyyətlər onun gələcək həyatında daha çox vətənə, xalqa gərəkli bir şəxsiyyət olacağından xəbər verirdi.

İnsana qarşı olan səmimi, humanist münasibəti onun nə qədər genişürəkli, humanist olmasını göstərirdi. Demək olar ki, bütün qohum-əqrabanın, dost-tanışların daim hal-əhvalını soruşar və bir sözlə hamını bir yerdə görmək istəyirdi. Və belə hallar ən çox məclislərdə baş verirdi. Həmin an görürdüm ki, Qalib nə qədər sevinir və ürəyincədir. Sözlə demək çətindir, onun xarakter-xüsusiyyətinin özünəməxsusluğu daha çox insana qarşı diqqət və qayğıkeşliyindən ibarət idi.

Qalib: (telefon zəngi çalınır) - Alo, salam bibi necəsən, hal-əhvalın necədir, gəlirəm sizə.

Dilşad xanım: -Bibi, sənə qurban tez gəl. Qapı açılır, boynuma elə sarılırdı ki, elə bil dünyanı mənə bağışlayırdı. Bibi qurban, çay-çörək hazırdır, de görüm ürəyin daha nə istəyir.

Qalib: -Bibi, hər şey yaxşıdır, deyib otaqlar boyu gəzişər, kitabları, qəzetləri vərəqləyər, şəkillərə baxardı. O, nə qədər böyük rütbəli, vəzifəli oldusa heç vaxt özündən razı hərəkətlərə yol verməzdi. Həmişə qürurlu duruşu, əsl türk ərəni necə olmalıdır fikrini isbatlayırdı.

Qalib haqda söylədiklərim onun dünyalı günlərindən kiçik bir parçalardır. Onu tanıyanlar daha yaxşı bilirlər ki, Qalib vətənə gərəkli oğul kimi dünyaya gəlmişdi. O, vətən üçün yaşadı, vətən üçün çalışdı, vətən üçün xidmət etdi. Bilirsiniz, necə deyim, - o, elə oğul, övlad payı idi ki, anadan əsl qəhrəman doğulmuşdu.





## Salam, cənab polkovnik-leytenant

*Qohum: Əmi nəvəsi - Nicat Əli oğlu ƏHMƏDOV*



*Nicat Əhmədov Qalib Hümbətovla*

Qısa arayış: Nicat Əhmədov 08 dekabr 1985-ci ildə Sumqayıt şəhərində anadan olub. Sumqayıt Dövlət Texniki Kollecinin "Yol hərəkətinin təşkili" fakültəsini bitirib.

Ailəlidir, 3 sevimli övladı dünyaya gəlib. Hüseyn adlı övladının vaxtsız vəfatı əzizlərini əbədi qəm-qüssəyə qərq etmişdir. Valideynlərinə və yaxınlarına Allahdan səbr diləyirik.

Yazını gözyaşlarımla başlayıram, -Qalib Hümbətov atamın əmisi nəvəsi, anamın xalası oğludur. Qalib, ata-anasının evliliyindən səkkiz il sonra dünyaya gələn ilk övlad sevinci olmuşdur. O, ailəyə gec gəlib, tez getdi. Qaliblə aramızda 6-7 yaş fərqimiz vardı, uşaqlıqdan idmanla məşğul olurduq. Məni ilk dəfə idmana o, həvəsləndirmiş və Sumqayıtdakı Mehdi Hüseynzadə adına stadionuna Yengivar müəllimin yanına aparmışdır. Cüdo ilə məşğul olurduq. Hətta bir, iki dəfə davamız düşmüşdü, Qalib və qardaşı Xaliq harayıma çatmışdılar. Qalib uşaqlıqda özünü Arnold Şvartsnegerə bənzədərdi, nə mənada? – güclü olmaq, zəhmli olmaq kimi, sonra hərbi məktəbə qəbul oldu və o gündən vətənə, hərbiyə, silaha olan sonsuz sevgisi

artdı. Çox savadlı idi, hansı sahə üzrə sual verilsəydi, tez düzgün cavab verərdi. Xüsusilə tibbi sahəyə böyük marağı, sevgisi var idi. Bu maraq və sevginin kökündə anasının tibb bacısı olması və həkimliyə olan həvəsi idi.

Ömrünü hərb sahəsinə həsr etdi, çalışdı, vuruşdu, ad qazandı. Amma şirin canına qənim kəsilən daxili xəstəlik sonda böyrəyini əlindən aldı. İki ildən sonra həmin xəstəlik daxili orqanlarına yayılmağa başladı. Son 3-4 ay həm xəstəxanaya, həm də hərbi hospitala özüm aparırdım. O, isə bu yaxşılığın əvəzində dualar edirdi və deyirdi, -bilirəm vaxtım azalıb.

Mənə deyirdi ki, çalış hər kəsə yaxşı ol, həmişə adama qalan yaxşılıqdı. Qalibi uşaqlıqdan anası tibb bacısı olduğundan, yəni çox vaxt evdə yox, xəstəxanada işdə olduğundan, anam Əhmədova Həmidə İsa qızı onu saxlayıb, böyüdüb. Və beləcə Qalib böyüyüb, vətənə gərəkli oğul oldu, tanındı. Lakin taleyin amansız hökmünə tuş gələn Qalib anamın qucağında gözlərinə baxaraq gözlərini əbədi yumaraq bu dünya ilə vidalaşdı. Qalib bu cür gedişiylə biz qohumları yandırıb-yaxdı. Kaş ki, sağ-salamat, aramızda olaydı. Bəli, o, aramızdadır, ruhu ilə həmsöhbətik, o, yaşayır.





## Mərhəmət aşiqi

*Qohum: Bibisi oğlu - Emin Rasim oğlu ORUCOV*

Qısa arayış: 1985-ci ildə Sumqayıt şəhərində anadan olub. Sumqayıt Dövlət Universitetinin Filologiya fakültəsini bitirib. Hazırda Azərbaycan dili və Ədəbiyyat müəllimi işləyir.

Mən Qalibin Qənirə bibisinin oğluyam. Qalib bizim dayıoğluların, xalaoğluların arasında ən böyüyümüz idi. O, təkcə yaşı, vəzifəsi ilə böyük yox, həm də öz hərəkətləri, dərin düşüncəsi ilə böyüklüyünü həmişə hiss etdirirdi. Dayıoğlu çox qohumcanlı bir insan idi. Mən onun bir cümləsini həmişə xatırlayıram. O, həmişə deyərdi ki, - Bizim nəsildəki uşaqları yığsan bir ordu yaranar. O, həmişə bizə qohumluq əlaqələrini möhkəm saxlamağa, bir-birimizi axtarıb-aramağa səsləyərdi.

Qalibin çox böyük ürəyi var idi. O, həmişə məzuniyyətə gələndə zəng edib mənimlə görüşərdi. Qohumların evinə gedərdi, onlara baş çəkərdi. Qalib haqqında çox danışmaq olar, o, çox gözəl xasiyyətli bir insan idi. Onun ölümü hamımıza çox böyük bir zərbə vurdu.

Allah Qalibə rəhmət eləsin! O, həmişə bizim ürəklərimizdə yaşayacaq!

# VI FƏSİL

## Kaş bir anlıq o günlərə dönə biləydik



*Leytenant Qalib Hümbətov*



*Mayor Qalib Hümbətov*









*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənabları Qalib Hümbətovu Aprel döyüşlərində göstərdiyi şücaətə görə təbrik edərkən*







*Qalib Hümbətov işdən qayıdarkən*



*Qalib Hümbətov təlim məşqlərində göstəriş verərkən*



*Qalib Hümbətov (soldan 4-cü)*







*Qalib Hümbətov dostu ilə*



*Qalib Hümbətov təlim məşqlərində*



*Qalib Hümbətov dostu ilə*



*Qalib Hümbətov (ortada) dostları ilə xəritə üzərində mövqeləri təyin edərkən*



*Qalib Hümbətov (ortada)*



*Qalib Hümbətov təlimlərdə*







*Xaliq, Qalib (ortada), Vasif*



*Qalib Hümbətov təbiət qoynunda*



*Soldan: atası Cavanşir, ortada Qalib və bibisi Roza, arxada bibisi oğulları Hüseyin və Emin Orucovlar*



*Qalib əzizləri: yeznəsi Vasif, bacısı Səkinə xanım və onların övladları arasında*



*Qalibin qızı Aytac*



*Qalib dostları Elçin Tağıyev və Vasif Rzayevlə*







*Qalib Hümbətov (ortada)*



*Qalib əmisi oğlu Cavid Nazim oğlu ilə*




*Qalib Hümbətovun son mənzili*





## Kitabın içindəkilər

Ön söz ....................................3
Qalibin ....................................5

**I FƏSİL**
**Dünyaya bir oğul gəldi...** ....................................7
Qələbələr onu səsləyərdi ....................................8
Ata ocağı ....................................18

**II FƏSİL**
**Məktəb illəri, ömrümün ən şirin duyğulu, qayğısız günləri** ....................................27
Zabit andı ....................................28
Bacarığı və istedadı ilə fərqlənərdi ....................................32
Vətən öz oğulları ilə fəxr edir ....................................34
Torpağın daşın sağ olsun... ....................................36
Qalib dostluq, mərhəmət körpüsü idi ....................................39
Vətənin şanlı oğlu ....................................41

**III FƏSİL**
**Kursant illəri** ....................................45
Vətən qəhrəman oğullarını haraylar ....................................46
Unudulmaz qəhrəman ....................................48
Vətənpərvər komandir ....................................54

**IV FƏSİL**
**Xidmət illəri** ....................................59
Azərbaycanın vətənpərvər zabiti ....................................60
Şərəfli insan, sədaqətli dost ....................................65
Fəxri zabit, fədakar qəhrəman ....................................69
O, həmişə şərəflə anılacaq ....................................72

Əbədi ölməzlik qazanan zabit.........74
Gələcəyin generalı.........76
O, əsgərlərə mübarizlik, kişilik məktəbini keçməyi öyrətdi.........78
Qəhrəmanlıq simvolu.........81
Əsl komandir, əsl insan.........83

**V FƏSİL**
**Əzizlərinin yaddaşında**.........85
Vətən qəhrəman oğullarına güvənir.........86
O, anadangəlmə qəhrəman idi.........89
Salam, cənab polkovnik-leytenant.........91
Mərhəmət aşiqi.........93

**VI FƏSİL**
**Kaş bir anlıq o günlərə dönə biləydik**.........95



QEYD

QEYD

**Rüfət Hüseynli**

# QALİBLƏRİN QALİBİ

## Qalib Hümbətov

Bakı - 2019

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Dizayner – Kəmalə FƏRHADOVA
Kompüter yığımı – Tərانə RƏHİMOVA
Cildçi – Gövhər NURULLAYEVA
Çapçı – Oqtay YUSİFOV

*Kitab "AFPoliqrAF" mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 01.04.2019
Çapa imzalanmışdır: 24.04.2019
Qarnitura: Palatino Linotype
Şərti çap vərəqi: 7
Formatı: 64x90 1/16
Tiraj: 100

Azf-309379



Rüfət HÜSEYNLİ (XINNALI)

Məni mən edən UCA YARADANA şükr edirəm və müəllimlərimin qarşısında baş əyib onlarla fəxr ediıəm!

Rüfət Qulu oğlu Hüseynli 08 iyul 1975-ci ildə Tovuz rayonunun Alakol kəndində ziyalı ailəsində anadan olub. Alakol kənd orta məktəbini bitirib. 1992-ci ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutuna (indiki Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) daxil olub, 1998-ci ildə İnstitutun politologiya fakültəsini bitirib.

Ehtiyatda olan zabitdir. Ailəlidir, üç övladı var. 1998-ci ildən mətbuatda sosial-iqtisadi, siyasi məqalələrlə çıxış edir. Türk tarixi üzrə müstəqil araşdırmaçıdır. "Qaliblərin Qalibi - Qalib Hümbətov" kitabı müəllifin oxucularla on səkkizinci görüşüdür.

9 789952 473896